14 oktyabr 2022 №76 (1949)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyev Astanada bir sıra görüşlər keçirib



Pakistan keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar hər zaman Azərbaycanın ərazi bütövlüyünə və suverenliyini davamlı şəkildə dəstək verib. Azərbaycan da Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini daim dəstəkləyir.

Bu fikirlər oktyabrın 12-də Qazaxıstanın paytaxtı Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şəriflə görüşündə vurğulanıb.

Görüş əsnasında Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığının önəmi, bu çərçivədə əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Eyni zamanda ölkələrimiz arasında hərbi-texniki, ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi məsələlərinə toxunulub və bu istiqamətdə müzakirələr aparılıb.

***

Oktyabrın 13-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə də görüşləri olub.

Qazaxıstan rəhbəri ilə görüşdə Orta Dəhliz adlandırılan Transxəzər marşrutu barədə fikir mübadiləsi aparılıb. Kasım-Jomart Tokayev bu mövzuda Türkiyə Prezidenti ilə də danışdığını və bu marşruta ölkəsinin tam dəstək verdiyini vurğulayıb. Azərbaycan Prezidenti qeyd edib ki, biz Transxəzər marşrutunun buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə bundan sonrakı işləri sinxronlaşdıra bilərik. Bu, həm bizim, həm də qonşuluğumuzdakı ölkələrin marağında olacaq.

İran Prezidenti ilə görüşdə regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb. İranla Azərbaycan arasında Ağbənd körpüsünün açılışının həm rəmzi, həm də böyük praktiki əhəmiyyətinin olduğu qeyd edilib.

Rusiya Prezidenti ilə söhbət zamanı iqtisadi-ticari əlaqələrin artdığı xüsusi vurğulanıb. Regionda təhlükəsizlik və davamlı sülhün təmin olunması müzakirə olunub.

## Azərbaycan ədaləti bərpa edib və Ermənistana sülh təklif edir

Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlının 30 il ərzində əziyyət çəkməsinə, misli görünməmiş vəhşiliyə, yüzlərlə şəhər və kəndimizin dağıdılmasına baxmayaraq, Azərbaycan Ermənistana qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edib.




Prezident İlham Əliyev bu sözləri oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısında çıxışı zamanı deyib.

Dövlət başçısı vurğulayıb ki, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə nəticəsində iki il əvvəl Azərbaycan öz torpaqlarını Ermənistan işğalından azad edib, 30 il davam edən Qarabağ münaqişəsinə son qoyub, ədaləti bərpa edib. Azərbaycan bununla BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin ölkəmizin işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin icrasını özü təmin edib.

Prezident qeyd edib ki, Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğal zamanı Azərbaycanın şəhər və kəndləri, mədəni və dini abidələr, məscidlər məqsədli şəkildə dağıdılıb, təhqir və talan edilib: "Təəssüf ki, 30 il ərzində biz erməni cəmiyyətinin bu cür vandalizmə qarşı heç bir etirazını eşitmədik, əksinə, hətta bu dağıntılar, erməni vandallar və hərbi cinayətkarlar təqdir edilir və qəhrəmanlaşdırılırdı. Ermənistan Azərbaycanın mülki əhalisinə və hərbçilərinə qarşı sistemli şəkildə müharibə cinayətləri törədib. Birinci Qarabağ müharibəsindən bəri 3900-ə yaxın Azərbaycan vətəndaşı itkin sayılır. Onların əksəriyyəti işgəncələrə məruz qalıb, öldürülüb və kütləvi məzarlıqlarda basdırılıb. Biz işğaldan azad edilmiş iki kənddə bu il kütləvi məzarlıqlar aşkar etdik. Ermənistan Azərbaycana itkin düşənlərin taleyi və kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumat təqdim etməlidir. Biz iki ilə yaxındır ki, bu məlumatı tələb edirik, ancaq Ermənistan hökuməti bunu Azərbaycanla bölüşməkdən imtina edir və bununla da özünü Ermənistanın əvvəlki rejimlərinin cinayətkar liderləri ilə assosiasiya edir".

Prezident bildirib ki, Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır.

"Minalardan təmizlənmə ilə paralel, indi Azərbaycan həm də işğaldan azad olunmuş ərazilərdə öz resursları hesabına genişmiqyaslı quruculuq işləri aparır. Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. "Böyük Qayıdış" adlanan proqram artıq başlayıb", – deyə İlham Əliyev əlavə edib.

Prezident çıxışında ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına töhfələrindən də bəhs edib. Bildirib ki, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastruktur layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir.

***

Zirvə toplantısında digər dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri də çıxış ediblər. AQEM-in tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi planları müzakirə olunub. 2022-2024-cü illərdə AQEM-ə Qazaxıstan sədrlik edəcək.

Sonda Astana Bəyannaməsi və digər sənədlər qəbul edilib.

Qeyd edək ki, əsas məqsədi və istiqamətləri Asiyada sülhün və təhlükəsizliyin təmin edilməsi üçün çoxtərəfli yanaşmaları inkişaf etdirməklə əməkdaşlığı gücləndirmək olan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin əsası 1992-ci ildə Qazaxıstanın təşəbbüsü ilə qoyulub.

Zirvə toplantısında Küveyt də AQEM-ə qəbul olunub və üzv dövlətlərin sayı 28-ə çatıb. Türkmənistan isə AQEM-ə müşahidəçi qismində qoşulub.

## İrsin idarəedilməsi bacarıqlarının inkişafı

Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının (AYSF) tərəfdaşlığı ilə "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" proqramı üzrə növbəti treninq keçirilir.



Oktyabrın 13-də açılışı olan təlim kursu UNESCO-nun 2003-cü ildə qəbul edilən "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasına həsr olunub. Kurs "Qlobal Kommunikasiyalar və İnnovasiyalar" şirkəti tərəfindən "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" təlim proqramı çərçivəsində reallaşır.

AYSF İdarə heyətinin sədri, təlim proqramının rəhbəri Vasif Eyvazzadə çıxış edərək proqram çərçivəsində bu günə kimi təşkil edilən üç təlim kursu haqqında qısa məlumat verdi. Bildirdi ki, təlim kursları 1954-cü il Haaqa Konvensiyası, münaqişələr zamanı mədəni irsin qorunması ilə bağlı olan konvensiya, 2005-ci il mədəni müxtəlifliyin qorunması ilə bağlı və dünya irsi ilə bağlı konvensiyaları əhatə edirdi.

Qeyd olundu ki, yeni təlim mövzu baxımından vacib əhəmiyyət kəsb edir. İkigünlük kursun təlimçi və ekspertləri Türkiyədən dəvət olunub.

V.Eyvazzadə daha sonra treninqin qısa xülasəsini iştirakçıların diqqətinə çatdırdı. Dedi ki, proqram üzrə qeyri-maddi mədəni irs nədir, nominasiya faylları necə hazırlanır, ekspert xidməti, qeydiyyat prosesi, üzv ölkələrin öhdəlikləri və digər mövzularda məruzələr təqdim olunacaq. Həmçinin konvensiyanın mətnində olan məqamlara, təlimat sənədində olan vacib məsələlərə toxunulacaq, reprezentativ siyahının növləri ilə bağlı ayrıca məlumat veriləcək. Bundan əlavə, katibliyin rolunun nədən ibarət olduğu və siyahıyaalınma prosesində beynəlxalq təcrübələr barədə də söhbət aparılacaq.

davamı səh. 3-də

## Mədəniyyət Nazirliyində BMT-nin Sülh Universitetinin daimi nümayəndəsi ilə görüş

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev oktyabrın 13-də Birləşmiş Millətlər Sülh Universitetinin BMT-nin Cenevrə Ofisində və UNESCO yanında daimi nümayəndəsi, səfir David Fernandez Puyana ilə görüşüb.

Görüşdə Mədəniyyət Nazirliyinin həyata keçirdiyi layihələr, beynəlxalq əməkdaşlıq məsələləri barədə qonağa məlumat verilib.

səh. 2

## İstanbulda azərbaycanlı rəssamın sərgisi açılıb



İstanbulda Azərbaycanın Əməkdar incəsənət xadimi, rəssam Rafiq Əzizin fərdi sərgisi açılıb. Sərgi İstanbul Böyükşəhər Bələdiyyəsinin 2022-2023-cü il mədəniyyət-sənət mövsümünün açılışı çərçivəsində reallaşıb.

səh. 8

## Kəlağayıdan "İpək sərvət"

### Azərbaycanlı modelyerin kolleksiyası Qazaxıstanda təqdim olunub

Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, Avrasiya Etnodizaynerlər Assosiasiyasının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru, modelyer-dizayner Gülnarə Xəlilovanın kəlağayıdan yaratdığı "İpək sərvət" geyim kolleksiyası Qazaxıstanda "Aspara Fashion Week" beynəlxalq layihəsinin onuncu mövsümü çərçivəsində təqdim olunub.




"İpək sərvət" layihəsi "Azerbaijan Kelagayi" milli brendi ilə birgə reallaşdırılıb. Taraz şəhərinin "Кене Taraz" etnomədəni kompleksinin "Şahristan" sərgi pavilyonunda baş tutan dəfilə böyük maraqla qarşılanıb. Moda həftəsi "Taraz-sənətkarlar şəhəri" Beynəlxalq sənətkarlıq sərgisi çərçivəsində təqdim edilib. Tədbirdə İtaliya, Almaniya, Polşa, Türkiyə, Çexiya, Çin, Rusiya, Fransa, Bolqarıstan, Hindistan, Ukrayna, Niderland, Qırğızıstan, Tailand, Qazaxıstan və Özbəkistandan tanınmış dizaynerlər iştirak ediblər.

Ekspozisiyada həmçinin "Cizgi by Gulnara Khalilova"dan Qarabağ və xarıbülbül çiçəyi olan milli naxışlarla ipək yaylıqlar və libaslar, araxçınlar, müxtəlif aksesuarlar təqdim olunub. Dizayner "Aspara Fashion Həftəsi" və "Taraz – sənətkarlar şəhəri" beynəlxalq sərgisində iştirakına görə diploma təltif olunub.

Qeyd edək ki, 2017-ci ildə dünyanın nüfuzlu geyim dizaynerlərindən Aydarxan Kaliyev tərəfindən yaradılmış "Aspara Fashion Week" bu il "Mədəniyyətlərin dialoqu" devizi altında keçirilib.

## Sirkdə şəhid və qazi ailələrinin övladları üçün şou-proqram



səh. 3

## UNESCO-nun sessiyasında Azərbaycanın milli bəyanatı təqdim edilib

səh. 3

## "Anamın kitabı" ingilis dilində




səh. 3

# Türk dünyası yeni potensial əldə edir

## İlham Əliyev: “Biz daim müstəqillik və milli ləyaqət yolu ilə getməkdən ötrü öz köklərimizə yaxın olmalıyıq”



Bu gün Türk dünyası yeni potensial əldə edir, həm Azərbaycan, həm də Qırğızıstan türkdilli dövlətlər arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə fəal töhfə verir. Gələn ay keçiriləcək Zirvə görüşü, fikrimcə, bizim həmrəyliyimizin möhkəmlənməsi işində daha bir addım olacaq. Biz daim müstəqillik və milli ləyaqət yolu ilə getməkdən ötrü öz köklərimizə yaxın olmalı, öz ənənələrimizə, əcdadlarımızın vəsiyyətlərinə söykənməli və xalqlarımızın nadir mədəniyyətini qoruyub saxlamalıyıq.

Prezident İlham Əliyev bu sözləri oktyabrın 11-də Bişkekdə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclasında çıxışı zamanı deyib.

Dövlət başçısı bu ilin aprelində Qırğızıstan Prezidenti Sadır Japarovun Bakıya səfəri zamanı imzalanmış bəyannaməni xatırladaraq bildirib ki, Azərbaycan və Qırğızıstan rəsmi şəkildə strateji tərəfdaşlardır. İlham Əliyev qeyd edib ki, biz bu bəyannaməni konkret məzmunla zənginləşdirəcəyik. Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya Fondunun yaradılması barədə qərar belə amillərdən biridir.

“Xalqlarımız arasında münasibətlər böyük tarixə malikdir” deyən Prezident İlham Əliyev bildirib ki, Bişkek şəhərində iki məktəbə dahi Azərbaycan şairi Nizami Gəncəvinin və müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin adının verilməsini xalqımıza hörmət əlaməti kimi dəyərləndiririk.

Prezident Sadır Japarov çıxışında iki xalqın ortaq tarixə, köklərə, mədəni irsə və milli xüsusiyyətlərə malik olduğunu vurğulayaraq Qırğızıstanın bu kontekstdə Azərbaycanla mədəniyyət, təhsil, elm, turizm, idman sahələrində münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini deyib. Qeyd edib ki, paytaxt Bişkekdə istifadəyə verilən Heydər Əliyev adına və Nizami Gəncəvi adına məktəblərdə təhsil alan gənclərimiz qardaş Azərbaycan ilə Qırğızıstan arasında dostluq və əməkdaşlıq körpüsünə çevriləcəklər. Sadır Japarov bildirib ki, tikintisi azərbaycanlı dostlarımızın köməyi ilə başa çatdırılan Qırğızıstan-Azərbaycan Dostluq parkı da münasibətlərimizi simvolizə edən məkan olacaq.

“Xatırlayıram ki, Bakıdakı görüşümüzdə mən “Manas” dastanında əsrlərin dərinliklərindən gələn qırğız mənəvi irsinin aparıcı mövzusunun birlik olması haqqında bizim dahi həmyerlimiz, yazıçı Çingiz Aytmatovdan sitat gətirdim. Biz birliyi, ləyaqəti, ədaləti dərindən qiymətləndirir, onlara ehtiramla yanaşırıq... 1995-ci ildə “Manas” dastanının 1000 illik yubileyinin qeyd olunması zamanı Qırğızıstana səfər edən Azərbaycan xalqının dahi oğlu və ölkənin ümummilli lideri hörmətli Heydər Əlirza oğlunun sözlərindən sitat gətirmək istəyirəm. O qeyd edirdi ki, biz bir-birimizi qəlbimizlə hiss edirik və anlayırıq. Biz öz tərəfimizdən, həmçinin vurğulamaq istəyirik ki, azərbaycanlı qardaşlarımızla əməkdaşlığın bütün istiqamətləri üzrə səmərəli işə hazırıq”, – deyə Sadır Japarov əlavə edib.

Qeyd edək ki, mədəni-humanitar sahədə əməkdaşlığın önəmi prezidentlərin iki ölkə arasında sənədlərin imzalanmasından sonra mətbuata bəyanatlarında da xüsusi vurğulanıb.

Sadır Japarov çıxışında əməkdaşlığın inkişafı üçün beşillik kompleks proqramın imzalanmasını diqqətə çatdıraraq bu kontekstdə 2023-cü ildə Azərbaycanda Qırğızıstanın Mədəniyyət Günlərinin, 2024-cü ildə isə Qırğızıstanda Azərbaycanın Mədəniyyət Günlərinin keçirilməsi barədə razılığa gəldiklərini deyib.

Prezident İlham Əliyev imzalanan sənədlər arasında Bakı və Bişkekin qardaşlaşmasına dair memorandumun olmasını da xüsusi qeyd edib: “Biz, həmçinin bu siyahının digər şəhərlərimizlə də davam etməsini müzakirə etdik. O cümlədən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa da Qırğızıstan şəhərləri ilə qardaşlaşacaq”.

***

Xəbər verdiyimiz kimi, oktyabrın 11-də Bişkekdə iki ölkə prezidentlərinin iştirakı ilə Qırğızıstan-Azərbaycan Dostluq parkının açılışı olub.




Mərasimdə çıxış edən Prezident İlham Əliyev deyib: “Qırğız torpağında bir daha görürəm ki, bu qardaşlıq sözdə deyil, əməldədir. Biz Qırğızıstan Prezidenti ilə bu gün məsələlərin geniş spektrini müzakirə etdik. Azərbaycan və Qırğızıstan arasında strateji tərəfdaşlıq artıq reallıqdır və biz hər gün bu tərəfdaşlığı yeni məzmunla zənginləşdiririk...”.

Prezident Sadır Japarov vurğulayıb ki, Qırğızıstan-Azərbaycan Dostluq parkının açılışı iki ölkə arasında dostluq münasibətlərinin və təkcə siyasi, iqtisadi deyil, həm də mədəni-humanitar əməkdaşlıqda iki qardaş xalqın tarixi əlaqələrinin möhkəmləndirilməsinin parlaq sübutudur: “Bu park qədim münasibətlərimizin, dərin tarixi, mənəvi və əxlaqi kökləri, dəyərləri, ənənələri olan ölkələrimizin möhkəm dostluq və qardaşlıq rəmzi kimi çıxış edir. Məhz bu, qurduğumuz müasir Qırğızıstan-Azərbaycan münasibətlərinin möhkəm təməlidir”.



Oktyabrın 11-də Prezident Sadır Japarovun adından Azərbaycanın dövlət başçısının rəsmi qəbulu təşkil edilib. Rəsmi qəbulda konsert proqramı təqdim olunub.

Sadır Japarov ulu öndər Heydər Əliyevlə bağlı fotoalbomu İlham Əliyevə hədiyyə edib. Albomda Heydər Əliyevin 1995-ci ildə Qırğızıstanda “Manas” eposunun 1000 illiyi tədbirlərində iştirakına dair fotolar da yer alıb. Prezident İlham Əliyevə qırğızlar haqqında Azərbaycan dilində kitab da təqdim edilib. Prezident İlham Əliyev kitabı alarkən deyib: “Bu kitab ona görə hörmətə layiqdir ki, biz öz dillərimiz – ortaq köklərə malik Azərbaycan dili və qırğız dili vasitəsilə bir-birimizi anlamalıyıq, bir-birimizin tarixi ilə fəxr etməliyik və bu gün razılaşdığımız kimi, ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşması üçün bizdən asılı olan hər şeyi etməliyik”.

***

Oktyabrın 12-də Bişkekdə Nizami Gəncəvi adına 103 saylı məktəbin açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və Sadır Japarov mərasimdə iştirak ediblər. Dövlət başçıları məktəblə tanış olublar.

Həmin gün Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin də açılışı olub. Mərasimdə çıxış edən Prezident İlham Əliyev hər iki məktəbin müəllim və şagirdlərini Azərbaycana dəvət edib: “Mən sizi yaxın tətillərdə dəvət edirəm. Biz sizin səfərinizi, Bakıda, arzulasanız Azərbaycanın digər yerlərində qalmağınızı təşkil edəcəyik. Fikrimcə, bütövlükdə, bizim tədris müəssisələri ilə belə münasibətlərin, əlaqələrin yaradılması üzrə işlərə artıq indi başlamaq lazımdır. Bu, bizim gəncləri əməkdaşlıq, qardaşlıq, dostluq ruhunda tərbiyə edəcək. Bu, bizi qarşılıqlı zənginləşdirəcək...”.

Oktyabrın 12-də Bişkekdəki “Ala-Arça” Dövlət Təbiət Parkında mədəni proqram təşkil olunub. Prezident İlham Əliyev və Sadır Japarov tədbirdə iştirak ediblər.

Mədəni proqramda qırğız xalqının milli adət və ənənələri geniş nümayiş olunub. Qırğız sənətkarları buradakı xiyabanda Azərbaycanın və Qırğızıstanın dövlət başçılarına əl işlərini, milli xalçalar – “Şırdak”ı təqdim ediblər. Dövlət başçıları milli xalçalar istehsal edilən emalatxanalarla tanış olublar. Qırğız xalqının milli mətbəxindən nümunələr də təqdim edilib.

Prezidentlər həmçinin milli geyim kolleksiyalarından ibarət sərgiyə baxıblar. Dövlət başçılarına ənənəvi “Salbuurun” ovunun elementləri də nümayiş etdirilib.

# Əməkdar artist Həsən Əblucun xatirəsi anılıb




Oktyabrın 13-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Binəqədi Mərkəzi Mədəniyyət Evində Əməkdar artist Həsən Əblucun 80 illiyinə həsr olunmuş tədbir keçirilib.

Mədəniyyət evinin direktoru Şahin Səmədov qonaqları salamlayaraq tədbiri açıq elan edib və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə baş idarənin Mədəniyyət siyasəti sektorunun müdiri Səbinə Məmmədova, Xalq artisti Əli Nur, Həsən Əblucun qardaşı, Əməkdar incəsənət xadimi Ənvər Əbluc, qızı, rejissor Elnaz Əbluc, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev, YAP Binəqədi rayon təşkilatının könüllüləri, rayon ictimaiyyəti və mədəniyyət işçiləri iştirak ediblər.

Tədbir zamanı Həsən Əblucun həyat və yaradıcılığından söhbət açılıb, çəkildiyi filmlərdən videosüjetlər nümayiş olunub.

Çıxışlarda qeyd edilib ki, görkəmli aktyor, rejissor, pedaqoq olan Həsən Əbluc, eyni zamanda biri-birindən maraqlı hekayələr, dram əsərləri də yazıb. Bildirilib ki, sənətkarın çəkdiyi filmlər və onun yaratdığı obrazlar yaşayır və yaşayacaq.

Sonda Həsən Əblucun qardaşı Ənvər Əbluc tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür edib.

# Yazıçıların qurultayının vaxtı məlum olub

Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII Qurultayının reallaşacağı tarix məlum olub.

AYB-nin mətbuat xidmətindən bildirilib ki, qurultay oktyabrın 26-da öz işinə başlayacaq. Tədbir Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçiriləcək.

Qurumun dəvəti ilə qurultayda Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan iyirmidən çox qonaq iştirak edəcək.

Qurultay iştirakçıları həmin gün Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin və Azərbaycan yazıçılarının məzarını, eləcə də Şəhidlər xiyabanı ziyarət edəcək.

Qurultay nümayəndələrinin siyahısı “Ədəbiyyat qəzeti”nin 22 oktyabr sayında dərc olunacaq.

Xatırladaq ki, AYB-nin ali orqanı olan qurultay beş ildən bir çağırılır. Qurultay sonuncu dəfə 2014-cü ildə keçirilib. 2019-cu ildən bəri isə pandemiya səbəbindən tədbirin keçirilməsi mümkün olmayıb.

# Mədəniyyət Nazirliyində BMT-nin Sülh Universitetinin daimi nümayəndəsi ilə görüş

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev oktyabrın 13-də Birləşmiş Millətlər Sülh Universitetinin (UPEACE) BMT-nin Cenevrə Ofisində və UNESCO yanında daimi nümayəndəsi, səfir David Fernandez Puyana ilə görüşüb. UPEACE (The University for Peace) BMT-nin müvaviq qətnaməsi ilə 1980-ci ildə yaradılıb.



Görüşdə Mədəniyyət Nazirliyinin həyata keçirdiyi layihələr, beynəlxalq əməkdaşlıq məsələləri barədə qonağa məlumat verilib.

Elnur Əliyev həmçinin Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüş “Bakı Prosesi” haqqında danışıb. “Bakı Prosesi”nin tərkib hissəsi kimi 2021-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal təşəbbüsünün irəli sürüldüyü diqqətə çatdırılıb. Qlobal təşəbbüs çərçivəsində Azərbaycanın sülhü təbliğ etdiyi, dövlətimizin bölgədə əmin-amanlığa nail olmaq yolunda addımlar atmağa hazır olduğu vurğulanıb.

Görüşdə Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ötən il keçirilən “Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü” mövzusunda Nizami Gəncəvi Beynəlxalq Forumundan da bəhs olunub. E.Əliyev bu beynəlxalq layihənin əhəmiyyətindən söz açaraq bildirib ki, nüfuzlu alim və tədqiqatçıları bir araya gətirən forum mütəfəkkir şairin insanları mərhəmətə, millətləri sülhə, ədalətin və harmoniyanın ümumbəşəri səltənətinin qurulmasına səsləyən poetik mirasının təbliğinə həsr olunmuşdu.

David Fernandez Puyana xüsusi vurğulayıb ki, Azərbaycan zəngin mədəniyyətə sahib ölkədir. O, həmçinin dövlətimizin mədəniyyətlərarası dialoqun inkişafında gördüyü işlərin təqdirəlayiq olduğunu bildirib.

Görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edib.

# Özbəkistanda azərbaycanlı maarifçi Seyid Rza Əlizadənin 135 illiyi qeyd edilib

Özbəkistanda mədəni-maarif işində böyük xidmətləri olmuş azərbaycanlı ziyalı Seyid Rza Əlizadənin anadan olmasının 135 illiyi münasibətilə Səmərqənd Dövlət Universitetində beynəlxalq elmi-praktik konfrans keçirilib.

“Seyid Rza Əlizadə - redaktor, tərcüməçi, alim və pedaqoq” adlı konfransda Azərbaycan, Pakistan, Tacikistan və İranın elm və təhsil nümayəndələri iştirak ediblər.

Səmərqənd Dövlət Universitetinin rektoru Rüstəm Xolmurodov və Səmərqənd Vilayəti Xakim müavini Xurşid Oçilov çıxış edərək Seyid Rza Əlizadənin elmi-yaradıcılıq irsindən, maarifçilik və tərcümə sahəsində fəaliyyətindən danışıb, onun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı təkliflər irəli sürüblər.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov konfransa göndərdiyi təbrik videosunda Seyid Rza Əlizadənin öz fəaliyyəti ilə xalqlarımız arasında dostluq körpüsünü qurduğunu vurğulayıb. O, Seyid Rza Əlizadənin Azərbaycan ziyalılarından ilhamlanaraq Səmərqənddə ilk dəfə olaraq yeni tipli məktəb açdığını, məktəblər üçün bir çox təhsil proqramları hazırladığını söyləyib, xalqın maariflənməsinə, elm, mədəniyyətin inkişafına böyük töhfələr verməsini qeyd edib.




Seyid Rza Əlizadənin Azərbaycan və dünya ədəbiyyatından bir çox əsərləri özbək dilinə tərcümə etdiyini və Türküstanda xalq təhsilinin yaranmasında böyük rol oynadığını söyləyən diplomat 2018-ci ildə AMM-in layihəsi ilə Səmərqənd Dövlət Universitetində “Seyid Rza Əlizadə adına Azərbaycan-Özbəkistan dostluq mərkəzi”nin yaradıldığını qeyd edib.

Özbəkistanın Ali Məclisi Senatının üzvü Rüstəm Murodov bildirib ki, Seyid Rza Əlizadə bütün ömrünü özbək türklərinin yeni tərbiyə metodlarını təbliğ etməklə inkişafa və maarifə doğru aparmasına həsr edib.

Seyid Rza Əlizadənin nəvəsi Fərhad Əlizadə çıxış edərək babasının elmi fəaliyyəti, yaradıcılığı haqqında danışıb, onun xatirəsinin əbədiləşdirilməsi, habelə yubiley tədbirlərinə görə Özbəkistan dövlətinə təşəkkürünü bildirib.

əvvəli səh. 1-də

# İrsin idarəedilməsi bacarıqlarının inkişafı

## Növbəti treninq "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyaya həsr olunub

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirdi ki, UNESCO-nun 2003-cü il Konvensiyası məzmun və fəaliyyət baxımından Mədəniyyət Nazirliyi üçün xüsusi əhəmiyyətə malikdir. Konvensiyanın əsas məqsədi UNESCO-ya üzv ölkələrdəki insanların yaradıcılığının məhsulu olan mədəniyyət nümunələrinin milli və beynəlxalq səviyyədə qorunmasıdır. Azərbaycan "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyaya 2006-cı ildə qoşulduğu vaxtdan qurumda bu istiqamətdə aktiv fəaliyyət göstərib, bir sıra layihələrə dəstək olub. Nazir müavini dedi ki, Azərbaycanın UNESCO-da ən uğurlu fəaliyyəti ölkəmizin 15 nominasiyasının qurumun müxtəlif siyahılarına daxil edilməsidir: "Bu siyahıda həm də təcili qorunmaya ehtiyacı olan fayllar yer alıb. Bugünkü təlimdə Türkiyədən olan təlimçilərin iştirakı da təsadüfi deyil. İllərdir biz bu istiqamətdə Türkiyə ilə sıx əməkdaşlıq edirik. Belə təlimlər bacarıqların inkişaf etdirilməsinə, qurumlar arasında əlaqələrin yaradılmasına və mütəxəssislərin yetişməsinə öz töhfəsini verir. İnanıram ki, hər bir iştirakçı öyrəndiyi bilik və bacarıqları tətbiq edərək öz həmkarları ilə də bölüşəcək".






Sevda Məmmədəliyeva UNESCO ilə Azərbaycan arasında münasibətlərdə, xüsusilə də konvensiya fəaliyyətində Birinci vitse-prezident, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi rolu və dəstəyini diqqətə çatdırdı. Xalqımızın mədəni irsinin qorunmasında göstərdiyi xidmətlərə görə Mehriban xanıma təşəkkürünü ifadə etdi.

Çıxışının sonunda təlimin işinə uğurlar arzulayan nazir müavini bu il də ölkəmiz tərəfindən yeni nominasiyaların siyahıya daxil ediləcəyini bildirdi.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənli çıxışında təlim proqramının sahələr üzrə töhfəsindən söz açdı. Qeyri-maddi mədəni irsin qorunmasının müəyyən şərtləri olduğunu vurğulayaraq bu şərtlərin reallaşmasında və təsdiqlənməsində Mədəniyyət Nazirliyi ilə birgə fəaliyyətin və razılığın vacibliyini diqqətə çatdırdı.

Sonra təlim öz işinə başladı. Birinci gün gündəliyə uyğun olaraq İstanbul Texniki Universitetinin Ənənəvi sənətlər şöbəsinin müdir müavini, sənətşünas Aslıhan Erkmenin məruzəsi dinlənildi. Məruzədə qeyri-maddi irs nədir, bu irsin qorunmasının zəruriliyi və əhəmiyyəti mövzularına toxunuldu.

Günün ikinci yarısı Türkiyə Ənənəvi sənətlər dərnəyinin üzvü Sona Tomaç konvensiyanın əsas müddəaları və konvensiya ilə əlaqəli əməliyyat təlimatları barədə məlumatı diqqətə çatdırdı.

Təlim çərçivəsində həmçinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısı üzrə müvafiq faylların hazırlanmasında vacib məqamlar, qeydiyyat prosesi, siyahıyaalma mexanizmlərinə dair beynəlxalq təcrübələr mövzusunda məlumat verildi.

Qeyd edək ki, təlim kursunda Mədəniyyət Nazirliyi və regional idarələrin əhatə etdiyi mədəniyyət müəssisələri, Dövlət Turizm Agentliyi, Mədəniyyət və İncəsənət Universiteti, "ABAD" publik hüquqi şəxsi, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Heydər Əliyev Mərkəzi, AMEA-nın Əlyazmalar İnstitutu, Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyası, "Arts Council Azərbaycan" və Bəstəkarlar İttifaqının nümayəndələrindən ibarət dinləyicilər iştirak edir.

**Lalə Azəri**

# UNESCO-nun sessiyasında Azərbaycanın milli bəyanatı təqdim edilib

Xəbər verdiyimiz kimi, 5-19 oktyabr tarixində Parisdə UNESCO-nun İcraiyyə Şurasının 215-ci sessiyası keçirilir. Sessiyanın plenar iclaslarında İcraiyyə Şurasının 28 üzv ölkəsinin milli bəyanatları dinlənilib.




Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev ölkəmizin milli bəyanatını təqdim edib.

Bəyanatda Azərbaycanın Ermənistanın ərazisində olan mədəni irsinin cari vəziyyətini qiymətləndirmək məqsədilə UNESCO missiyasının göndərilməsinə dair vətəndaş cəmiyyətlərinin, eləcə də QHT-lərin dəfələrlə müraciət etdiyi də xatırladılıb.

Elman Abdullayev bildirib ki, UNESCO-ya üzvlüyünün 30 illiyini qeyd edən Azərbaycan bu illər ərzində təşkilatın mandatına uyğun olaraq bütün sahələr üzrə öz töhfələrini verib.

İcraiyyə Şurasının 214-cü sessiyasından sonra Azərbaycan-UNESCO arasında əməkdaşlığın daha da dərinləşdiyi, ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələr qeyd edilərək, 2023-cü ilin mart ayında Bakının İdman Nazirlərinin 7-ci Beynəlxalq Konfransına (MINEPS VII) ev sahibliyi edəcəyinə dair məlumat verilib. Bəyanatda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində fəaliyyətindən, verdiyi töhfələrdən bəhs edilib və ölkəmizin UNESCO-nun irqçilik və hər növ ayrı-seçkiliyə qarşı fəaliyyətini təqdir etdiyi diqqətə çatdırılıb.

Azərbaycanın 30 il ərzində genişmiqyaslı təcavüzə məruz qaldığı xatırladılaraq bildirilib ki, işğal dövründə Azərbaycanın əraziləri tamamilə dağıdılıb, doğma torpaqlarından didərgin düşmüş yüz minlərlə insan öz mədəni hüquqlarından məhrum olub. Bu illər ərzində Azərbaycan dəfələrlə UNESCO-ya bölgəyə texniki missiya göndərməyinə dair müraciət etsə də, Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə belə missiyaların reallaşması mümkün olmayıb.

Sonda Azərbaycanın 2008-ci ildə əsası qoyulmuş "Bakı Prosesi"nə və MINEPS VII konfransına dair İcraiyyə Şurasının 215-ci sessiyasının gündəliyinə 2 qərar layihəsi təklif edildiyi diqqətə çatdırılıb.

***

Sessiyanın oktyabrın 13-də keçirilən iclasında UNESCO-da Qoşulmama Hərəkatına (QH) üzv ölkələr qrupuna Azərbaycanın sədrliyi çərçivəsində QH ölkələrinin bəyanatı da səsləndirilib.

Bəyanatda qeyd edilib ki, Qoşulmama Hərəkatı yarandığı gündən qlobal sülhün, ədalətin və həmrəyliyin inkişafında böyük rol oynayıb. BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq qurum kimi müxtəlif 120 ölkəni birləşdirən QH multilateralizmin əsl nümunəsidir.

QH-yə üzv dövlətlərin UNESCO-nun bu ilin sentyabr ayında təşkil olunmuş Təhsilin Transformasiyası Sammiti və MONDIACULT Konfransını təqdir etdiyi bildirilib. QH ölkələr qrupu UNESCO-nu Afrika, gender bərabərliyi kimi qlobal prioritetlərə dair səylərini davam etdirməyə və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə, eləcə də gənclər məsələlərinə də prioritet yanaşma tətbiq etməyə çağırıb.

# Bədii tədris müəssisələrinə işə qəbulla bağlı narazı qalanların şikayətlərinə baxılıb

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu Qaydaları"nın müvafiq bəndinə əsasən yaradılmış Komissiya tərəfindən 2022/2023-cü tədris ili üçün uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu ilə bağlı keçirilmiş müsabiqənin müsahibə mərhələsinin nəticəsinə yenidən baxılıb.

Ümumilikdə müsahibə nəticəsinin yenidən araşdırılması ilə bağlı nazirliyə 22 nəfərin müraciəti daxil olub. Onlardan 19 nəfərinin müraciətinə 7 və 10 oktyabr tarixlərində Komissiya üzvlərinin iştirakı ilə baxılıb. 3 nəfər isə şikayəti ilə bağlı Komissiya tərəfindən təyin edilmiş iclasda iştirak etməyib.

Şikayətçilərin və dəvət olunan ekspertlərin iştirakı ilə müvafiq müsahibələrin videoyazıları təhlil edilib və müsahibələrin nəticəsi barədə yekun qərarlar verilib.

Komissiyanın qərarlarına əsasən, 6 nəfərin – Hüseynli-Babayeva İradə Ramil qızı (fortepiano), Rəhimli Esmira Kərim qızı (fortepiano), Parlanzadə Kamal Əfqan oğlu (tar), Əliyeva Fidan Vüsal qızı (violin), Əbdülqasımova Lalə Elman qızı (musiqi nəzəriyyəsi) və Asalıyeva Anelya Nizami qızının (musiqi nəzəriyyəsi) müvafiq ixtisaslar üzrə vəzifəyə uyğun hesab edilərək şikayətləri təmin edilib.

Nazirliyin ehtiyat kadrlar siyahısına əlavə edilən həmin namizədlərin tədris ili ərzində müvafiq vakant vəzifə yaranacağı təqdirdə onların razılıqları ilə həmin vəzifələrə təyin edilməsi nəzərdə tutulur.

Şikayətləri təmin edilməyən namizədlərin müsabiqənin test mərhələsində göstərdiyi nəticələr 2 il müddətində qüvvədədir. Həmin müddət ərzində onlar nəticələrinə uyğun olaraq məktəb və mərkəzlərdə müəllimlərin işə qəbulu ilə əlaqədar təşkil ediləcək müsahibələrdə birbaşa iştirak edə bilərlər.

# Payız əhval-ruhiyyəli və sevgi dolu əsərlər

## Əməkdar artist Suğra Bağırzadənin fərdi sərgisi



Oktyabrın 11-də Azərbaycan Rəssamlar İttifaqının (ARİ) V.Səmədova adına sərgi salonunda Əməkdar artist, aktrisa və rəssam Suğra Bağırzadənin sənət əsərlərindən ibarət fərdi sərgisi açılıb. Sərgi sənətkarın 75 illik yubileyinə töhfədir.

ARİ-nin sədri, Xalq rəssamı Fərhad Xəlilov iştirakçıları salamlayaraq bildirib ki, kinodakı rolları ilə tanınan, ümumilikdə mədəni həyatda özünəməxsus yeri olan Suğra Bağırzadə Rəssamlar İttifaqının fəal üzvüdür. Sənətkarın mütəmadi olaraq öz gözəl əsərlərindən ibarət fərdi sərgiləri keçirilir.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva sərginin açılışına görə Suğra Bağırzadəni təbrik edərək deyib: "Suğra xanım haqqında illər öncə bir yazı yazmışdım. O öz həyatında da, yaradıcılığında da gözəlliyi əks etdirir. Yaratdığı əsərlərlə və yaradıcılığı ilə insana gözəl duyğu, həmçinin enerji bəxş edir...".

Xalq rəssamı Aydın Rəcəbov Suğra Bağırzadənin Dünya Floristika Şurasının Azərbaycandan olan ilk və yeganə üzvü olduğunu vurğulayaq onun yaradıcılığından söz açıb.

Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev və Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Rafiq Kərimov da yubilyarın çoxşaxəli sənət yolundan danışıblar.

Suğra Bağırzadə sərginin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.



"Bu, yubiley ilində – 75 yaşımda üçüncü sərgidir. Bu il silsilə sərgilər keçirməyi hədəfləmişdim, buna da əməl edirəm".

Bu sözləri isə Suğra Bağırzadə jurnalistlərə açıqlamasında da deyib. Bildirib ki, əsərlərində əsasən yaz əhvalı duyulur: "Amma indi payız olduğuna görə bu əsərləri xüsusilə meşələrdən yığdığım sarı güllərdən, həmçinin dibçək güllərindən böyük sevgi ilə yaratmışam. Bu baxımdan nar, çəmənliklər, daha sonra canlı güllərdən hazırladığım payız əhval-ruhiyyəsi və s. əsərləri qeyd etmək olar".

# Musiqili Teatrın gözlənilən tamaşası

## "Anamın kitabı" ingilis dilində

Oktyabrın 15-16-da Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Mədəniyyət Nazirliyinin yeni layihəsi – "Anamın kitabı" tamaşasının premyerası olacaq.

Tamaşa Azərbaycan dramaturgiyasının klassik nümunələrindən olan Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri əsasında hazırlanıb. Səhnə əsərinin quruluşçu rejissoru İradə Gözəlova, quruluşçu rəssamı Vüsal Rəhimovdur. Plastik səhnə hərəkətlərinin quruluşu Xalq artisti Pərviz Məmmədrzayevə və rejissor Zaur Əliyevə aiddir.

Yeni rejissor yozumunda ərsəyə gələn tamaşada ölkənin müxtəlif teatrlarının aktyorları eyni səhnəni bölüşəcəklər. İngilis dilində hazırlanan tamaşada əsas məqsəd ana dilimizin təbliğidir.

Böyük dramaturqun "Anamın kitabı" əsərində əsas mövzu üç qardaşın dil, din, düşüncə tərzlərinin fərqliliyi nəticəsində aralarında yaranan sürəkli mübahisələrdir. Günümüzlə səsləşən və düşündürən mövzu əsərin baş qəhrəmanı olan ananın timsalında təqdim olunur. Ana övladlarını öz milli-mənəvi dəyərlərinə sahib olmağa, ana dilinə yiyələnməyə və birliyə çağırır. Oğullar isə daha çox müasir dünyanın tələblərinə cavab verməyə can atır, nəticə etibarilə innovativ texnologiyalarla zəngin bir mühitin fonunda öz milli dəyərlərini itirmək təhlükəsi ilə üz-üzə qalırlar. Beləliklə, ana övladları ilə mübarizəyə başlayır.

Akademik Musiqili Teatrın tarixində ilk dəfə ingiliscə nümayiş olunacaq tamaşaya biletləri şəhərin kassalarından, "ASAN Xidmət" mərkəzlərindən, eləcə də "İticket.az" saytından əldə etmək mümkündür.

# Sirkdə şəhid və qazi ailələrinin övladları üçün şou-proqram



Xəbər verdiyimiz kimi, Bakı Dövlət Sirki oktyabrın 14-dən noyabrın 27-dək "Beynəlxalq sirk: festival qalibləri" adlı yeni mövsüm proqramını tamaşaçılara təqdim edəcək.

Oktyabrın 12-də isə proqramın şəhid və qazi ailələri üçün xüsusi nümayişi olub.

Şou-proqramda pəhləvanların, jonqlyor, illüzionist, akrobat və rəqs nömrələrini göstərən artistlərin çıxışlarına, o cümlədən əcnəbi sirk ustalarının çıxışlarına yer verilib. Klounların peşəkar ustalığı, möhtəşəm illüziya şousu, hava gimnastlarının fəndləri və digər beynəlxalq sirk ustalarının çıxışları tamaşaçıları heyrətləndirib.

Bakı Dövlət Sirki uzun illər sonra ilk milli sirk nömrəsini də formalaşdırıb. Sirk nömrəsində Qarabağ atları ilə rəqqasların birgə çıxışı sayəsində möhtəşəm kompozisiya ərsəyə gəlib.

Qeyd edək ki, "Beynəlxalq sirk: festival qalibləri" proqramının təşkilatçısı dünya şöhrətli azərbaycanlı sirk ustası, Dünya Sirk Sənəti Festivalının laureatı Allahverdi İsrafilovdur.

# "İslam dünyasının turizm paytaxtı" Azərbaycanla əlaqələrdə maraqlıdır

2022-ci ildə Ərəb regionu üzrə "İslam dünyasının turizm paytaxtı" elan edilmiş İordaniyanın Mədəbə şəhəri Azərbaycanla mədəniyyət və turizm sahələrində əməkdaşlıqda maraqlıdır.

Ölkəmizin İordaniyadakı səfiri Eldar Səlimovun Mədəbə vilayətinin qubernatoru Nayif əl-Hidayət ilə görüşündə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Mədəbənin meri Arif əl-Rəvacihin də iştirak etdiyi müzakirələrdə qeyd olunub ki, bu şəhərlə Azərbaycanın mühüm turizm mərkəzləri arasında birgə layihələrin həyata keçirilməsi, habelə qarşılıqlı səfərlər və təcrübə mübadiləsi hər iki ölkə üçün faydalı olacaq.

Səfir E.Səlimov ölkəmizin turizm potensialı, bu sahədə həyata keçirilən layihələr barədə məlumat verib. Diqqətə çatdırıb ki, "Azərbaycan Hava Yolları" QSC Bakı və Əmman arasında aviareyslər təşkil edir.



Görüşdə Mədəbə Turizm Departamentinin rəisi Vail əl-Ceynini Azərbaycan səfirinə turizm sektorunun fəaliyyəti və potensialı barədə məlumat verib. Azərbaycanlı qonaqlar Mədəbədəki turistik məkanlar və Mozaika İnstitutu ilə tanış olublar.

## Şəhid Milli Qəhrəman haqqında kitabın təqdimatı keçirilib

Sumqayıt RMİ Sumqayıt şəhər MKS S.Vurğun adına Mərkəzi Kitabxananın Uşaq şöbəsində yazıçı-publisist Oqtay Ərgünəş Əliyev və Pərvanə Mehmanqızının birgə müəllifi olduğu "Vətən sənə oğul dedi" kitabının təqdimatı keçirilib. Kitab Vətən müharibəsinin şəhid polkovniki, Milli Qəhrəman Şükür Həmidova həsr olunub.



Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Milli Qəhrəmanın döyüş yolunu əks etdirən videoçarx nümayiş olunub.

Yazıçı-dramaturq, kulturoloq Hafiz Ataxanlının moderatorluğu ilə gerçəkləşən tədbirdə müəlliflər Ordumuzun qəhrəmanlıq salnaməsinin gənc nəsillərə çatdırılmasında ədəbiyyatın, incəsənətin mühüm rolundan danışıb, bu mövzuda kitab yazmağın ağır, eyni zamanda şərəfli missiya olduğunu söyləyiblər.

Şükür Həmidovun qardaşı Əsəd Həmidov, döyüş yoldaşları – Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Nizami Mövlamov, "Rəşadət" ordenli polkovnik Nemət Məmmədov, "İstedad" liseyinin direktoru Adilə Süleymanova şəhidlik məqamının ucalığından bəhs ediblər.

Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Mərkəzi Kitabxananın direktoru Natəvan Axundzadə, Heydər Əliyev Mərkəzinin direktoru Vüsalə Qurbanova və başqaları döyüş meydanında və diplomatiya cəbhəsində ölkəmizin uğurlarından söhbət açıblar.

Şagirdlər şəhid Milli Qəhrəmana həsr olunmuş kompozisiya təqdim ediblər, vətənpərvərlik ruhlu musiqilər səsləndirilib.

Sonda Şükür Həmidovun atası Nəriman Həmidov tədbirin təşkilatçılarına və qonaqlara təşəkkür edib.

## Regionlarda xalça sənətinin inkişafına dəstək

### Layihə üzrə Ağdam və Bərdədə tədbirlər



"Azərbaycan xalçaçıları" İctimai Birliyi (AXİB) Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Regionlarda xalça sənətinin inkişafına dəstək" layihəsini həyata keçirir. Layihə üzrə ilk tədbir bu günlərdə Ağdam rayonunda reallaşıb.

Ağdama səfər zamanı rayon İcra Hakimiyyəti başçısının birinci müavini Allahverən Əliyevlə görüş keçirilib. Sonra Quzanlı qəsəbə Mədəniyyət evində məlumatlandırıcı sessiya təşkil olunub.

Tədbirdə AXİB İdarə Heyətinin üzvü, xalçaçı-rəssam və rəngkar Eldar Hacıyev, "Azərxalça" ASC-nin Ağdam filialının rəhbəri, Əməkdar mədəniyyət işçisi Ceyran Əliyeva və digər qonaqlar iştirak ediblər.

Layihə rəhbəri, AXİB-in üzvü Timur Qavrin tədbiri açıb, birliyin katibi Günel Aslanova Azərbaycan xalça sənətinin tarixi, müasir inkişaf yolu haqqında məruzə edib. Məruzədə Qarabağ xalça məktəbinin özəlliklərindən bəhs olunub, bu kontekstdə Eldar Hacıyevin yaradıcılığına nəzər salınıb.

Sonda Eldar Hacıyev tədbir iştirakçılarının suallarını cavablandırıb.

***



Layihə üzrə növbəti görüş Bərdə RMİ Bərdə Dövlət Rəsm Qalereyasında gerçəkləşib. Tədbirdə çıxış edən idarə rəisi Vəsilə Möhsümova bildirib ki, Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur.

Sonra "Azərbaycan xalçaçıları" İctimai Birliyinin əməkdaşları tərəfindən xalçaçılıq sənəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Mütəxəssislər iştirakçılara ustad dərsləri keçib.

Qeyd edək ki, 2010-cu ildə yaradılan "Azərbaycan xalçaçıları" İctimai Birliyinin sədri Əməkdar mədəniyyət işçisi Röya Tağıyevadır.

**Hazırladı: N.Məmmədli**

## Vətən fədailərinin xatirəsi əziz tutulur



Göyçay şəhərinin Natəvan küçəsində 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Orxan Akif oğlu Kərimlinin xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub. Orxan Kərimli 2001-ci il oktyabrın 6-da Göyçayın Potu kəndində anadan olub. 2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsində cəbhənin müxtəlif istiqamətlərində döyüşüb. 2020-ci il oktyabrın 10-da Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. "Vətən uğrunda", "Cəsur döyüşçü", Kəlbəcərin və Qubadlının azad olunmasına görə medalları ilə təltif edilib.

***

Masallı RMİ Cəlilabad rayon 1 saylı şəhər kitabxana filialının əməkdaşları və bir qrup fəal oxucu şəhid Nurlan Ağamalıyevin doğum günü münasibətilə ailəsinə baş çəkiblər.

***

Ağdaş RMİ Zərdab rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsinin şəhid giziri Turan Muradovun xatirəsinə həsr olunmuş "Qəhrəmanlıq azərbaycançılıqdır" mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən mərkəzin direktoru Könül Rəhimova Turan Muradovun ömür yolundan, Vətən müharibəsində göstərdiyi şücaətdən danışıb.

***



Ağstafa RMİ Tovuz rayon MKS və rayon Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidləri Əhməd Abbasov, Vüqar Əkbərov və Emin Hüseynovun ailələrini ziyarət ediblər.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Müharibə uşaqların gözü ilə" adlı Vətən müharibəsi şəhidləri Səyyar Arazov, Arzu İsgəndərov, Nicat Qasımov və Ramal Qasımovun ailə üzvləri ilə görüş keçirilib.

***



Şəki RMİ Zaqatala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları 2016-cı ilin Aprel döyüşləri şəhidi Rəvan Nurayevin, Vətən müharibəsi şəhidləri Vidadi Məmmədov və Natiq Mahmudovun məzarlarını ziyarət edib, onların ailələrinə baş çəkiblər.

***

Sumqayıt RMİ Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzində Vətən müharibəsinin şəhid baş leytenantı Mikayıl Məmmədzadənin doğum günü ilə əlaqədar "Şəhid qanı axmayan torpaqdan Vətən olmaz" adlı tədbir keçirilib. Tədbirdə qəhrəman şəhidə həsr olunan səhnə canlandırılıb. "Qönçə" xor kollektivi və bədii özfəaliyyət kollektivinin ifasında vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.

## "Kommunikasiya meneceri" layihəsi çərçivəsində görüşlər



Mədəniyyət Nazirliyi tərəfindən təqdim olunan "Kommunikasiya meneceri" layihəsi çərçivəsində Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) üzrə görüş təşkil olunub. Sabirabad rayon Heydər Əliyev Mərkəzində keçirilən iclasda layihə üzrə Sabirabad RMİ-də yaradılmış işçi qrupunun üzvləri və tabe müəssisələrdə sosial media üzrə əlaqələndirici şəxslər iştirak ediblər.

İclasda idarə rəisi Fərid Qurbanzadə çıxış edərək regional idarənin kommunikasiya meneceri Anar Rəhimliyə və onun rəhbərliyi ilə yaradılmış işçi qrupuna uğurlar arzulayıb, layihənin fəaliyyətinə dair tövsiyələrini verib.

Daha sonra kommunikasiya meneceri Anar Rəhimli layihənin məqsədləri barədə danışıb. İclas fikir mübadiləsi ilə davam edib.

***

Şəki RMİ-də kommunikasiya meneceri fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar işçi qrupu yaradılıb, idarəyə tabe müəssisələrdə əlaqələndirici şəxslər təyin edilib. Şəki şəhər Heydər Əliyev Mərkəzində idarənin kommunikasiya meneceri Elvin Qarayev işçi qrupunun üzvləri və tabe müəssisələrin məsul nümayəndələri ilə görüşüb. O, öncə Mədəniyyət Nazirliyinin sözügedən layihəsi barədə məlumat verib, layihənin nazirliyin sistemində həyata keçirilən islahatların tərkib hissəsi olduğunu bildirib. KİV və sosial media ilə iş prosesində qarşıya çıxan problemlər, onların həlli yolları barədə fikir mübadiləsi aparılıb.

***

Ağdaş RMİ üzrə bu layihə ilə bağlı yaradılan işçi qrupunun da ilk iclası keçirilib. Tabe müəssisələrdə sosial media fəaliyyətinə



məsul şəxslərin qatıldığı iclasda qeyd edilib ki, mədəniyyətimizin, mədəniyyət sahəsində nazirliyin, aidiyyəti müəssisə və təşkilatların fəaliyyəti barədə ictimaiyyətin, ənənəvi mətbu imkanlarla yanaşı, müasir kommunikasiya vasitələri ilə operativ formada məlumatlandırılması diqqətdə saxlanılmalıdır. Vurğulanıb ki, media subyektləri ilə, ictimaiyyətlə əlaqələrin səmərəli şəkildə qurulması, nəticə etibarilə dövlət-cəmiyyət münasibətlərinin yüksəldilməsinə xidmət edir.

## Bölgələrdə müxtəlif səpkili tədbirlər



Şəmkir RMİ-nin rəisi vəzifələrini müvəqqəti icra edən Nurəddin Mehdiyevin sədrliyi ilə idarənin tabeliyində fəaliyyət göstərən müəssisələrin rəhbərləri ilə seminar-müşavirə keçirilib. Fəaliyyətin müasir tələblər səviyyəsində təşkili, mövcud problemlərin aradan qaldırılması ilə bağlı müvafiq tapşırıqlar verilib.

***

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Bəşəri bəla – narkomaniya" mövzusunda tədbir keçirilib. Çıxış edənlər narkomaniyanın yaranma səbəbləri, nəticələri, bu bəladan uzaq olmanın yolları barədə məlumat veriblər.

***

Sabirabad RMİ Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyində "Gəlin, gələcəyimizi qoruyaq!" adlı tədbir keçirilib. Tədbirin keçirilməsində məqsəd sağlam gənc nəslin yetişdirilməsi, narkomaniyaya qarşı mübarizə və gənclər arasında təbliğat işlərinin aparılması, həmçinin milli şüurun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin aşılanmasıdır.

***

Ağstafa RMİ Ağstafa Dövlət Rəsm Qalereyasında "Əhməd Cavad müstəqilliyin tərənnümçüsüdür" başlıqlı tədbir keçirilib. İstiqlal şairinin 130 illiyi münasibətilə keçirilən tədbirdə qalereyanın baş fond mühafizi Naibə Musayeva çıxış edərək Əhməd Cavadın yaradıcılığı haqqında geniş söhbət açıb.

Qazax Dövlət Rəsm Qalereyasında isə Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyinə həsr olunmuş "Xeyriyyəçi qadın" adlı tədbir keçirilib. Tədbirdə qalereyanın əməkdaşları, dərnək üzvləri və mədəniyyət işçiləri iştirak ediblər.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 6 saylı Gənclər Kitabxana filialı "Gəncədə erməni terrorunun izləri" başlığı altında ekskursiya təşkil edib. Ekskursiyada İsmət Qayıbov adına Gəncə şəhər 1 saylı tam orta məktəbin şagird və müəllim kollektivi, kitabxananın fəal oxucuları iştirak ediblər.



Samux rayon Mədəniyyət Mərkəzində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın (1892-1937) 130 illik yubileyinə həsr edilmiş tədbir təşkil olunub. Tədbirdə Əhməd Cavadın həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilib.

## Şuşada daha 15 binanın tikintisi başlanır

Şuşa şəhərində inşa olunacaq daha 15 yaşayış binasının tikintisinə, abadlaşdırılma və əlavə texniki qurğuların inşasına dair Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin elan etdiyi açıq tenderin qalibi müəyyən edilib.

İdarədən verilən məlumata görə, 9 şirkətin təqdim etdiyi təkliflər tender komissiyası üzvləri tərəfindən qiymətləndirilib və "Archico" MMC tenderin qalibi elan olunub. Tenderin şərtlərinə görə şirkət tərəfindən avtodayanacaqla birgə, 3-5 mərtəbə olmaqla 15 yaşayış binası (Cənub yaşayış zonası) tikiləcək. Layihənin məbləği 41 milyon manata yaxındır. Şirkət tikinti başa çatdıqdan sonra binaların 24 ay ərzində istismarına da zəmanət verəcək.

Məlumatda qeyd olunur ki, Şuşa şəhərinin Baş planına uyğun olaraq ümumilikdə 23 binadan ibarət yaşayış massivinin inşası həyata keçirilir.

Bundan əvvəl Şuşada 8 yaşayış binasının inşası üzrə keçirilən tender müsabiqəsində "Conco" QSC qalib olub və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi bu şirkətə 15 milyon manat ödəyəcək.

## Lənkəran teatrında "Casus"a ictimai baxış olub

Lənkəran Dövlət Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın "Casus" əsəri tamaşaya qoyulub. Süjet xətti "Kitabi-Dədə Qorqud" eposundan qaynaqlanan səhnə əsərinə oktyabrın 10-da ictimai baxış keçirilib.

...Oğuz elinin təəssübkeşi Dədə Qorqud casusun kim olduğunu bilsə də, bu məsələyə insani mövqedən yanaşmağa qərar verir. Bunun üçün o, Boğazca Fatmanı casus oğlunun başına gələcək fəlakətdən xəbərdar edərək ölümdən xilas yolunu ona göstərir...



Tamaşanın quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Azər Hacıələsgərlidir. Rolları Xalq artisti Qabil Quliyev (Dədə Qorqud), Əməkdar artist Sucəddin Mirzəyev (Qazan xan), habelə Əlibala Əsgərov (Bayandur xan), Qızılgül Quliyeva (Boğazca Fatma), Aynur Əhmədova (Burla xatın), Miraslan Ağayev (Şirşəmsəddin), Allahverən Babayev (Bəkil), Əbülfəz Axundov (Aruz qoca), Səyyad Əliyev (Beyrək) və başqaları ifa edirlər.

Teatrdan verilən məlumata görə, nümayişdən sonra keçirilən müzakirədə Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin əməkdaşları Könül Cəfərova və Günay Hümbətova çıxış edərək fikirlərini bölüşüb, yaradıcı kollektivə uğurlar diləyiblər.

Teatrın direktoru Tofiq Heydərovun sözlərinə görə, yaxın günlərdə "Casus"un premyerası keçiriləcək.

## Mingəçevir səhnəsində "Münəccim Səlimin nağılları"

Mingəçevir Dövlət Dram Teatrında "Münəccim Səlimin nağılları" adlı uşaq tamaşasının premyerası keçirilib. Mingəçevirli müəllif Günel Məcidovanın əsəri əsasından ərsəyə gələn tamaşaya teatrın baş rejissoru Vüsal Mehrəliyev quruluş verib.

Tamaşanın diqqətçəkən səhnə dekorasiyası və aktyorların məharətli çıxışı balaca teatrsevərlər tərəfindən maraqla qarşılanıb. Xalq artisti Ella Yaqubovanın usta oyunu tamaşaya xüsusi rəng qatıb və digər aktyorlara da sirayət edib.

Tamaşanı izləyən Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova nümayişdən sonra yaradıcı heyətlə görüşüb, uğurlu səhnə əsərinə görə təbriklərini çatdırıb.

Vüsal Mehrəliyev yeni mövsümdə iki tamaşa hazırlayıb: "Mingəçevir teatral şəhərdir, tamaşaçılar böyük həvəslə bu məkana gəlirlər. Hazırda kollektiv üç nağıl üzərində məşqlərini davam etdirir".

# Gələn il Azərbaycan teatrının 150 illiyi TÜRKSOY-da qeyd ediləcək

## Elçin Qafarlı: "Hüseyn Cavidin altı pyesini Türkiyə türkcəsinə uyğunlaşdırıb nəşr etdirməyi planlaşdırmışıq"

5-9 oktyabr tarixində keçirilən VIII Bakı Beynəlxalq Kitab Sərgisində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY da təmsil olunurdu. Sərgi çərçivəsində Mədəniyyət Nazirliyinin bu qurumdakı nümayəndəsi Elçin Qafarlı ilə həmsöhbət olduq.

*– Elçin müəllim, TÜRKSOY builki sərgidə necə təmsil olunur?*

– TÜRKSOY olaraq bundan əvvəl də bir neçə dəfə Bakı Beynəlxalq Kitab Sərgisində iştirak etmişik. Bu dəfə stendimizdə təşkilatımız tərəfindən nəşr edilən, türk xalqlarının ədəbiyyatını, folklorunu, dastanlarını, poeziyasını, musiqisini, yəni zəngin mədəniyyətini əks etdirən son nəşrlərimiz yer alıb. TÜRKSOY-un stendinə böyük marağın şahidi olduq.

*– Gələcəkdə təşkilatın himayəsi ilə sırf türkdilli dövlətlərin və toplumların kitab sərgisini keçirmək olarmı?*

– Gələn il TÜRKSOY-un 30 illiyidir. Bu münasibətlə müxtəlif tədbirlər, o cümlədən ayrıca kitab sərgisinin də keçirilməsi nəzərdə tutula bilər.

*– Bu il Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileyləri qeyd olunur. Bununla bağlı TÜRKSOY tərəfindən hansı tədbirlər keçirilib?*

– TÜRKSOY hər il Türk dünyası mədəniyyətinin müxtəlif sahələrini təmsil edən dahi şəxsiyyətlərimizin yubileylərini qeyd edir, bəzilərinin adına isə xüsusi il elan olunur. Məsələn, əvvəlki illərdə biz Azərbaycandan Mirzə Fətəli Axundzadə, Molla Pənah Vaqif, İmadəddin Nəsimi, Qara Qarayev və Nizami Gəncəvinin yubileyləri ilə bağlı illər elan etmişik. Bu il isə görkəmli bəstəkarımız Fikrət Əmirovun 100 illiyi münasibətilə TÜRKSOY tərəfindən "Fikrət Əmirov İli" elan etmişik. Bəstəkarın yubileyi ilə bağlı ilk tədbir bu ilin fevral ayında Ukraynada keçirildi. Baxmayaraq ki, Ukrayna TÜRKSOY-un üzvü deyil, lakin TÜRKSOY ortaq türk mədəniyyətini nəinki türk dövlətlərində, digər ölkələrdə də tədbirlər keçirərək o xalqlara da bizim mədəniyyətimizi tanıtmaqla məşğuldur. Ona görə də biz "Fikrət Əmirov İli"nə Ukraynanın Dnepropetrovsk şəhərində keçirdiyimiz konsertlə başladıq və sonra Qazaxıstanda, bu günlərdə isə Türkiyədə davam etdirdik. Oktyabrın 7-də Adanada, 9-da Ankarada "Fikrət Əmirov İli" ilə bağlı konsertlər təşkil edildi.

Onu da qeyd edim ki, ənənəvi keçirdiyimiz "TÜRKSOY Opera Günləri" bu il Fikrət Əmirova həsr olundu. Türk dünyasından gələn opera sənətçilərinin iştirakı ilə Türkiyənin Bursa və İzmir şəhərlərində və Şimali Kiprin Girne və Qazimağusa şəhərlərində keçirilən konsertlərdə bəstəkarın əsərləri sənətsevərlərə təqdim edildi.




Bu il görkəmli şairə Xurşidbanu Natəvanın 190 illik yubileyi qeyd edilir. Yubileylə bağlı iyul ayında Ankarada, TÜRKSOY-un qərargahında Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsi və ölkəmizin Türkiyədəki səfirliyi ilə birlikdə "Qarabağdan doğan Günəş və Ay. Xurşidbanu Natəvan. Fatma xanım Kəmina" kitabının təqdimatını keçirdik. Sentyabrda Şuşada "Məclisi-üns"ün bərpası ilə bağlı keçirilən tədbirdə Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan dəvət etdiyimiz gənc şairlər də iştirak etdi. Həmçinin bu il TÜRKSOY və Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsi ilə birlikdə görkəmli satirik şairimiz Mirzə Ələkbər Sabirin 160 illiyi ilə bağlı tədbir keçirilib.

Bundan əlavə, iyun ayında istiqlal şairimiz Əhməd Cavadın 130 illiyi ilə bağlı Ankarada böyük bir tədbirlər proqramı həyata keçirdik. Onun şeirlərini Türkiyə türkcəsində nəşr etdirərək təqdimatını reallaşdırdıq.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin 140 illiyi ilə bağlı müəllifin 6 pyesini Türkiyə türkcəsinə uyğunlaşdırıb nəşr etməyi planlaşdırmışıq.

Məlum olduğu kimi, 2022-ci il eyni zamanda tanınmış qırğız yazıçısı Toktobolot Abdumomunovun (1922-1989) 100 illiyi münasibətilə TÜRKSOY tərəfindən ələmətdar il elan edilib. "Abdumomunov İli" ilə bağlı üzv ölkələrimizdə, o cümlədən noyabr ayında Bakıda tədbirlərin keçirilməsi nəzərdə tutulub.

*– Türk dünyasının gözü bu il qədim Bursaya dikilib...*

– Bəli, bu il tədbirlərimizin əsas hissəsi "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada keçirilir. Türk dünyasının teatr, kino, ədəbiyyat, sənətkarlıq, moda, muzey sahələri üzrə müxtəlif tədbirlərimiz olub. Türkiyənin Safranbolu şəhərində isə avqust ayında "TÜRKSOY Rəssamlar Görüşü" ənənəvi tədbiri keçirildi. Tədbirdə ümumilikdə 23 rəssam (ölkəmizdən 4 rəssam) iştirak etdi. İki həftə davam edən tədbirdə hər rəssamın hazırladığı 3 əsərdən ikisi Safranbolu mövzulu, biri isə Türk dünyası ilə bağlı rəsm əsərləri idi. Sonda 69 rəsm əsəri ərsəyə gəldi və TÜRKSOY-un rəsm kolleksiyasını zənginləşdirdi.

Onu da deyim ki, biz bütün tədbirlərimizə yaşlı, orta və gənc nəsli təmsil edən sənət adamlarını dəvət edirik ki, onlar da əsləti özündən sonra gələn nəslə ötürsünlər.

*– Təşkilatın bu il daha hansı tədbir və layihələri gözlənilir?*

– 1-5 noyabr tarixində Türkiyənin Bursa şəhərində "Korkut Ata" ("Dədə Qorqud") Türk Dünyası Beynəlxalq Film Festivalı keçiriləcək. Bu, sayca ikinci festivaldır. Keçən il ilk dəfə İstanbul şəhərində təşkil olunan festivalda Türk dünyasından kinematoqrafiya sahəsində mütəxəssislər, prodüserlər, menecerlər, aktyorlar, rejissorlar iştirak etdilər. Bu ildən festivalın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilən şəhərlərində keçirilməsi qərara alınıb. Beləliklə, növbəti il festivalın Şuşada keçirilməsi planlaşdırılıb.

Bundan başqa, bildiyiniz kimi, TÜRKSOY-un teatr fəaliyyəti də var. Bununla bağlı qurumun nəzdində üzv ölkələrin Teatr Rəhbərlərinin Şurası fəaliyyət göstərir. Mən hazırda həmin şuranın koordinasiyasını da həyata keçirirəm. Şuranın toplantılarında teatrlar arasında əməkdaşlığı, bu sahədə olan problemləri və digər məsələləri müzakirə edirik. Çox istərdik ki, Türk dünyasının gənc yazarları yeni dram əsərləri qələmə alsınlar. TÜRKSOY bu məsələni də diqqətdə saxlayır. Təşkilatın Türkiyədə fəaliyyət göstərən Avrasiya Yazarlar Birliyi ilə əməkdaşlığı çərçivəsində hər il müxtəlif mövzularda ədəbi müsabiqələr keçirilir. TÜRKSOY tərəfindən üzv ölkələrin teatrlarına tövsiyə olunur ki, həmin müsabiqələrdə dram janrı üzrə qalib gəlmiş əsərləri öz repertuarlarına daxil etsinlər.

Təşkilatın iştirakı ilə teatr festivalları da keçirilir. 4 il əvvəl Qazaxıstanın Mədəniyyət Nazirliyi və Mangistau Vilayətinin İcra Hakimiyyəti ilə birlikdə Aktau şəhərində Xəzəryanı ölkələrin teatr festivalı keçirildi. Festivalda 5 Xəzəryanı ölkənin teatrları iştirak etdilər. Əsas məqsədimiz digər Xəzəryanı ölkələrdə də ardıcıllıqla bu festivalın davam etdirilməsidir.

Həmçinin TÜRKSOY-un özünün beynəlxalq teatr festivalını keçirmək kimi bir fikrimiz də var. Bu festivalın ilkini gələn il "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olacaq Şuşada keçirməyi planlaşdırırıq. Bilirsiniz ki, hazırda Şuşada teatr binası yoxdur. Amma festivalın açılış və bağlanış mərasimləri Şuşada, festivalın tamaşaları isə Bakıda, Gəncədə və yaxud başqa bir şəhərdə nümayiş oluna bilər.

*– Gələn il TÜRKSOY-un 30 yaşı tamam olur. Yubiley nə ilə yadda qalacaq?*

– TÜRKSOY-un yaradılması ideyası 1992-ci ildə irəli sürülüb. Bu təşkilatın yaradılması ilə bağlı Bakı və İstanbul şəhərlərində bir sıra görüşlər keçirilib, nəhayət, 12 iyul 1993-cü il tarixində Qazaxıstanın Almatı şəhərində TÜRKSOY-un yaradılması haqqında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin mədəniyyət nazirləri tərəfindən protokol imzalanıb.

2023-cü ildə TÜRKSOY-un quruluşunun 30 illiyini həm üzv ölkələrimizdə, həm də UNESCO və BMT kimi mötəbər təşkilatlarda qeyd etməyi nəzərdə tutmuşuq. Artıq bununla bağlı hazırlıqlar gedir. TÜRKSOY 30 illik fəaliyyəti dövründə müxtəlif layihələrə imza atıb. Bu layihələrdən ən önəmlilərindən biri "Türk Dünyasının Mədəniyyət Paytaxtı"dır. İndiyədək 10 şəhər bu missiyanı daşıyıb. Bunlardan birincisi Astana (2012), sonuncusu isə Bursa şəhərləridir. Gələn il isə Azərbaycanın mədəniyyət incisi olan Şuşa şəhəri bu estafeti qəbul edəcək. Qeyd etdiyim kimi, TÜRKSOY-un ənənəvi tədbirlərini "paytaxt" elan etdiyimiz şəhərlərdə keçiririk. Şuşada tədbirlər keçirməklə bu şəhəri Türk dünyasına və daha geniş ictimaiyyətə tanıtdırmağı qarşımıza məqsəd qoymuşuq. TÜRKSOY Şuşada keçiriləcək tədbirlərlə bağlı təkliflər hazırlayaraq Azərbaycan Mədəniyyət Nazirliyinə təqdim edib. Nazirlik bu təklifləri nəzərdən keçirir və noyabrın 5-də Bursa şəhərində keçiriləcək TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbəti iclasında müzakirə olunaraq təşkilatın 2023-cü il üçün fəaliyyət planına daxil ediləcək. İnanıram ki, Türk dünyasının mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə keçiriləcək bu tədbirlər vasitəsilə mədəniyyət beşiyimiz Şuşa TÜRKSOY pəncərəsindən dünyaya yüksək səviyyədə tanıdılacaq.

*– 2023-cü ildə ölkəmiz, o cümlədən Türk dünyası üçün bir sıra ələmətdar ildönümləri olacaq...*

– Doğrudur, gələn il Azərbaycan peşəkar milli teatrının 150 illiyidir. TÜRKSOY Azərbaycan teatrının yubileyini Türkiyədə qeyd etmək istəyir. Hazırda bununla bağlı işlər gedir. Tədbirə Azərbaycandan və Türk dünyasından teatr mütəxəssislərini dəvət etmək, Azərbaycan teatr rəssamlarının sərgisini və teatrımızın tarixinə aid fotosərgi keçirmək istəyirik. Türk dövlətlərində teatr rəssamlarının sərgisi, demək olar ki, nadir hallarda keçirilir. Amma Avropada, dünyada bu praktika var. Bu sərgini keçirməklə Azərbaycan teatrının 150 illiyinə bir töhfə vermək istəyirik. Ümid edirəm ki, bu təklif gələn ay keçiriləcək TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının iclasında 2023-cü illə bağlı fəaliyyət planımıza da daxil ediləR.

Gələn il Azərbaycan kinosunun yaranmasının 125, görkəmli kinorejissor, Xalq artisti Rasim Ocaqovun isə 90 illiyidir. TÜRKSOY olaraq bu iki yubileyi birləşdirib Azərbaycan kinosunun təbliği ilə bağlı bir tədbir də keçirməyi düşünürük.

Həmçinin Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib. Ümummilli liderimizin mədəniyyətə çox böyük diqqəti və qayğısı olub. Ulu öndərlə bağlı ələmətdar ildə "Heydər Əliyev və mədəniyyət", "Heydər Əliyevin Türk dünyası mədəniyyətinin inkişafında rolu" və digər mövzularda tədbirlər keçirməyi planlaşdırırıq.

Bundan başqa, gələn il qardaş Türkiyə Cümhuriyyətinin də 100 illiyidir. Bu yubiley ili münasibətilə də TÜRKSOY tərəfindən müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur.

**Söhbətləşdi: Nurəddin Məmmədli**

# Payızda "Yay günü" qarabasması

Akademik Milli Dram Teatrında mövsümün ilk premyerası – "Yay günü" tamaşasını izlədim. Tamaşa polşalı yazıçı-dramaturq, karikaturaçı, satira ustası və absurd teatrın klassiklərindən sayılan Slavomir Mrojekin eyniadlı pyesi əsasında hazırlanıb.

Oktyabrın 6-da teatrın Abbas Mirzə Şərifzadə adına səhnəsində (kiçik zal) təqdim olunan tamaşaya gənc rejissor Mehman Fətullayev quruluş verib. Quruluşçu rəssam Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, musiqi tərtibatçısı Amal Ramazanov, rejissor assistenti Nərmin Həsənovadır. Yaradıcılıq işinin bədii rəhbəri Xalq artisti Azər Paşa Nemətovdur. Pyesi dilimizə Mehman Musabəyli çevirib.

Üç aktyorluq oyunda rolları Ramin Şıxəliyev, Elsevər Rəhimov və Lalə Süleymanova ifa edirdilər.

Tamaşa arzularını həyata keçirə bilmədiyindən intihar yolunu seçən çılğın gənc (Uğursuz) ilə bütün arzularını reallaşdırdığından, yaşamaq həvəsi qalmayan zəngin və kübar kişinin (Uğurlu) dialoqları ilə başlayır. Sonradan prosesə hər ikisini asanlıqla bu yoldan çəkindirən qüvvə – cazibədar və ağıllı qüvvə (Qadın) qoşulur. Onun uğrunda mübarizə başlayır və təbii ki, hiyləgər kübar üzməyi bilmədiyinə görə intihara can atan oğlanı çox asanlıqla suya, özünün qurduğu tamaşanın ən uğursuz oyunçusu olan qızı isə ən çox qorxduğu oda "atır". Nəticədə həyat ilə bağlı arzuları suya düşən bütün çılğınlar üçün mükəmməl dərs verir.



Pyes karikaturaçı adlandırılmağı heç sevməyən müəllifin insan xarakterini, onun naqis xüsusiyyətlərinin təsvirində, mənə görə, ən təsirli əsərlərindəndir. Doğrudur, onun daha çox Rusiya teatrlarında populyarlıq qazanan, son illər Avropada səhnə həlli tapan başqa əsərləri də var. Amma məhz bu əsər sadə insanların ən primitiv haqqını – yaşamaq üçün kibrit qutusuna sığacaq sevinclərini belə onlara çox görən xudbinlərin ən yaxşı karikaturası hesab oluna bilər.

Quruluşunda müəllifin insan münasibətləri üzərində tragik gəzişməsinə absurd tragikomediya kimi baxan, daha doğrusu, bizi bu baxış bucağına təhrik edən rejissor element olaraq absurd teatra xas sadə məqamları görməzdən gəlsə də, ümumi planda tamaşaçı ilə uğurlu dialoqa nail olub. Bunu qəhrəmanlara reaksiyalardan, ələlxüsus da təkbətək gedişlərdəki didaktiklikdən sezmək mümkündür.

Hərçənd emosional, daha dəqiq desəm, səhnədə mütləq əks qütbləri – ağ ilə qaranı, yaxşı ilə pisi, xeyir ilə şəri qarşılaşdırıb, onların "xoruz döyüşü"ndən zövq alan ənənəvi tamaşaçı belə yanaşmanı asanlıqla itələyə bilir. Bu mənada rejissorun cəsarəti alqışlanmalıdır. Üstəlik intellektualların söz döyüşü, yəni sosial münasibətlər fonunda uzun dialoqlar bizim tamaşaçıya quru təsir bağışlayır və o, ani olaraq darıxır. Bu məqamda rejissor və rəssam musiqi tərtibatçısını da cəlb edərək mütləq bir "baş aldatdı" mərəkəsi qurmalıdır. Bizim cəsarətli gənc bunu da lüzum görməyərək, tamaşaçı ilə aktyoru üz-üzə, göz-gözə qoymuşdu.

Yəni rejissor da müəllif kimi öz qəhrəmanlarına qarşı "soyuq amansızlığı" ilə yadda qaldı. Tamaşaçını məcbur etdi ki, müəllifin baş-başa qoyduğu qurbanlarına özü bərəət versin, özü yer göstərsin.

Bu yanaşma da əbəs deyildi. Düzdür, bizə görə yeni, daha dəqiq ifadə etsəm, xor baxdığımız formadır. Həyatda olduğu kimi, səhnədə də sosial-psixoloji mexanizmlərin fəaliyyətini asanlıqla qəbul etmirik və ona rəğbət göstərənləri də mühakimə edirik. Maraqlıdır ki, rejissor bunu da eyninə almır və beləcə, səhnədəki üçlük arasında nə qurbanı, nə qatili, nə də əbləhi barmaq ilə göstərmir. Əvəzində əsərdən irəli gələn soyuq, təmkinli intellektual dramı ifaçıların daxili müqavimətinin ixtiyarına buraxır. Qalib ilə məğlubu təyinatı da. Bununla da üçlüyə öz aralarında savaş açır. Aktyorlar da inadla qəhrəmanlarının davranışları, əslində, özlərinin ifadəsi üçün psixoloji motivasiya axtarırlar.

Bu yerdə oyun üslubuna xarakterik olan keyfiyyəti özündə tapmayan aktyora qahmar çıxaraq "Rejissorun aktyor ilə işi zəif olub" deyənlər ola bilər. Amma quruluşçu aktyora kifayət edəcək qədər manevr ərazisi vermişdi. Nədənsə bunu müəyyən məqamlarda yalnız bir oyunçunun bir-iki cəhdində sezə bildik. Tamaşa boyu kiçik məkanda özünü ucsuz-bucaqsız səhrada hiss edən azmış adamları gördük. Niyəsini anlamaq da olar. Hətta bunu onlara keçmək də. Gəncdirlər, həyəcan iliklərinə işləyir və tərəf-müqabil ilə arasında hələ "divar" var. Əlbəttə, başqa tamaşalarda əlavə elementlər – butafor tör-töküntüləri səni lazımi məqamlarda tamaşaçıdan gizlədə bilir. Bu dəfə isə, demək olar ki, tərtibatsız bir tamaşada bir sən onunla duelə çıxmısan və səhv eləmək lüksun yoxdur. Bax, tamaşada, aktyor oyununda məhz bu dilemma çatmırdı və təəssüf ki, rejissor onları xilas edə bilmədi...

**Həmidə Nizamiqızı**

# "Mən, sən, o və telefon"

## Akademik Rus Dram Teatrının yeni mövsümdə ilk premyerası




7-8 oktyabr tarixlərində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində yeni mövsümün ilk premyerası olub.

Xalq yazıçısı Anarın eyniadlı əsəri əsasında hazırlanan "Mən, sən, o və telefon" tamaşası teatrsevərlər tərəfindən maraqla qarşılanıb.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gələn tamaşanın quruluş müəllifi Sankt-Peterburqda yaşayan həmyerlimiz, istedadlı rejissor Ərşad Ələkbərov, quruluşçu rəssamı Kristina Danilinadır (Rusiya).

Ə.Ələkbərov Rusiya Dövlət İncəsənət İnstitutunun məzunudur. Azərbaycanda, Rusiyada, Qazaxıstanda tamaşalar qoyub. Bir neçə il öncə Akademik Rus Dram Teatrının səhnəsində E.İoneskonun "Kral ölür" pyesi əsasında "Mərasim" tamaşasını səhnələşdirib.

"Mən, sən, o və telefon" tamaşasına gəlincə, bu, teatrın gənc aktyorlarını bir araya gətirməklə onların potensialını üzə çıxarmağı bacaran nümunədir. Əsas rolları Əməkdar artist Natəvan Hacıyeva, aktyorlar İbrahim Çingiz, Rəşad Əliyarov, Yeganə Hüseynli, Murad İsmayılov, Dilarə İsmayılova, Cövhər Abdullayev, Səma Vəliyeva, Rüfət Əliyev, Samirə Rüstəmova, Zaur Terequlov oynayırlar.

Tamaşanın musiqi tərtibatında Xalq artisti, bəstəkar Tofiq Quliyevin klassik estrada nümunələrindən, eləcə də Ayət Baxşıyev (tar), Xəyal Əliyev (qarmon) və Səriyyə Məmmədovanın (piano) canlı ifalarından da istifadə olunub.

№76 (1949)
14 oktyabr 2022
www.medeniyyet.az

# Yazan ilə oxuyanın ortaq məxrəci

Bu günlərdə başa çatan Bakı Beynəlxalq Kitab Sərgisinin bir yaxşı özəlliyi də yazar ilə oxucunun görüş yerinə çevrilməsidir. Beləcə, kitab vasitəsilə bir-birini qiyabi tanıyan hər iki tərəf canlı ünsiyyət qurmaq, hisslərini bölüşmək üçün yazılan ilə oxunan arasındakı incə xəttin üzərindən birgə keçmiş olurlar.





Sərgi günlərində çoxsaylı görüşlərdən ikisində mən də iştirak etdim. Bunlar Xalq yazıçısı Elçin və Xalq şairi Nəriman Həsənzadə ilə oxucu teması idi.

İlk görüşün mövzusu da maraqlı idi: "Müasirlik və ədəbiyyatımızın problemləri". Elçin, sözsüz ki, bu mövzuda danışmaq, analiz və müzakirə etmək haqqına malik barmaqla sayılacaq imzalardandır. Çünki o, müasir dediyimiz ədəbiyyatın həm də yaradıcılarından biridir. Eyni zamanda dərin müşahidə və müqayisə qabiliyyəti ilə seçilən diqqətli oxucu, üstəlik ədəbiyyatşünasdır. Elə bu görüş də o üfüqlərdə oldu.

Müasir Azərbaycan ədəbiyyatı, onun çağdaş durumu və ümumilikdə dünyada kitaba münasibət ətrafında söz açan yazıçı bu kontekstdə "Şərq-Qərb" nəşriyyatının İlyas Əfəndiyev haqqında çap etdiyi kitabdan da danışdı. Nümunənin yalnız İlyas Əfəndiyevdən deyil, onun mühitindən, sovet dövrü ədəbi prosesindən bəhs etdiyini vurğuladı.

Çağdaş dövrün oxucusu, texnologiya zamanının ədəbiyyatı və ümumilikdə bəşər övladının kitaba münasibətinə özünəməxsus çalarlar ilə rəng qatan yazıçı bütün dövrlərdə yaradıcılıqda insan amili, onun hisslərinə toxunmanın yaşamaq haqqı qazandığını dedi: "Əslində, burada hər hansı mülahizə, daha doğrusu, analiz o qədər də vacib deyil. Ədəbiyyat nədir? İnsan yaşantısının bədii təsvirlərlə tərənnümü. Ədəbiyyatın predmetini insan, onun hissləri, düşüncəsi və daxili aləmi təşkil edir. Ədəbiyyat ananın balaya laylasından yaranıb və beləcə, insana xidmətə başlayıb...".

Oxucu sualları əsasında davam edən görüşdə müxtəlif yaradıcılıq məsələlərinə də toxunuldu. Əsərləri müxtəlif teatrların repertuarında özünə yer tutan yazıçı günümüzün teatr və dramaturgiya mənzərəsinə də toxundu: "Bu gün çağdaş dramaturgiyanın durumu, onun problemləri haqqında tez-tez danışılır, teatrların müasir əsərlərə münasibəti müzakirə olunur. Amma oturuşmuş ənənə var və heç bir teatr istəməz ki, repertuarında yaxşı əsər olmasın. Mirzə Fətəli Axundzadə öz pyeslərini qələmə alanda milli dramaturgiya yox idi və ilk dəfə o, dramaturgiyanın əsasını qoydu. Peşəkar teatrımız o və sonrakı əsərlər ilə özünün inkişafını, tamaşaçı kütləsini formalaşdırdı. Pyes yazmaq, hər hansı formada onu səhnəyə gətirmək elə də asan deyil. Onu yazan müəlliflərdə istedad, zamanın və mühitin nəbzini tutmaq qabiliyyəti olmalıdır. Dramaturgiya teatr ilə qarşılıqlı əlaqədə olur və bu mənada əks fikirləri subyektiv saymaq olar. Bu gün ölkədə imzası tanınan əksər dramaturqların əsərləri teatr səhnələrində oynanılır. Teatrın inkişafını təmin etmək üçün gərək keyfiyyətli dram əsərləri ərsəyə gəlsin, mütəxəssis rejissorlar bu əsərlərin səhnəyə qoyulmasında iştirak etsin. Bütün hallarda yaxşı əsər üçün də peşəkar rejissor, istedadlı quruluşçu lazımdır".

Yazıçının sözlərinə görə, dramaturgiyanın inkişafı üçün mühit olmalıdır, bu xüsusda gənc pyes müəlliflərini stimullaşdırmaq üçün zəruri addımlar atılmır.

Poeziyanın problemlərinə də nəzər yetirən Elçinin fikrincə, digər janrlara nisbətdə bu istiqamətdə kəmiyyət və keyfiyyət qənaətbəxş sayıla bilər: "Poeziyamızda inkişaf daha güclüdür. Nəsr və dramaturgiya haqqında eyni sözü deyə bilmirik. İstedadlı gənclər çoxdur, ancaq bu istedadı üzə çıxarmaq lazımdır. Dünyagörüşünün artırılması, güclü mütaliə istedadın inkişaf etdirilməsinə kömək etməlidir. Müəllifi də hər hansı janra istiqamətləndirmək, daha doğrusu, "bu janrda yazmaq lazımdır" demək olmaz. Çünki mövzu özü janrın tapmalıdır. Çox vaxt müəlliflər əsərin formasını özləri adlandırır və daha çox populyar olanlara qaçırlar. Oxuyanda bunun tam əksini görürsən. Məsələn, postmodernist üslubda əsər yazdığını deyir. Amma bu yanlış təqdimatdır. Bunu sənin oxucun müəyyən edib, özlüyündə təyinini verəcək...".

Ədəbiyyatın "canlı orqanizm" olduğunu deyən yazıçı bildirdi ki o, hər an eyni ovqatda ola bilməz. Ədəbiyyat fərqli-fərqli dövrlərdə gah inkişaf edir, gah onda müəyyən durğunluq müşahidə olunur ki, burada hər hansı bədbinliyə əsas yoxdur.

Xalq yazıçısı roman janrı ilə bağlı vəziyyətə də toxundu, irihəcmli əsərlərin az yazıldığını dedi. Uşaq ədəbiyyatındakı problemlərdən də bəhs edərək bu sahədəki durğunluqdan təəssüflə söz açdı.

Sonda oxucuların "Son zamanlar daha çox hansı mövzularda əsərlər oxuyursunuz?" sualına cavab verən müəllif bildirdi ki, yaxşı yazıçı həm də zövqlü oxucu olmalı və daim mütaliə ilə məşğul olmalıdır, özünə gəlincə, son zamanlar daha çox tarixi mövzulara, o cümlədən SSRİ tarixi ilə bağlı materiallara maraq göstərir.

***

Nəsrin, bədii fikrin yeni axınlarının polemikasının ardınca ruhunda izahsız bir saflığı israrla qoruyub saxlayan və onu səxavətlə oxucusuna izhar edən Xalq şairi Nəriman Həsənzadə ilə görüş oldu.

Tədbirdə çıxışı edən Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli görkəmli qələm ustasının əsərlərindən ibarət oncildliyin yenicə çapdan çıxan ilk cildi barədə məlumat verdi. Bildirdi ki, şairin yaradıcılığı, dillər əzbəri olan şeirləri hər zövqdən və nəsildən olan oxucular üçün maraqlı və doğmadır: "Onun zərif qəlbinin, saf hisslərinin, kövrək duyğularının poetik tərənnümü olan bu şeirlər oxucu kimi bizi də öz təsirinə asanlıqla sala bilir. Çünki hər birinin mayasında dürüstlük, səmimiyyət və ülviyyət var".

Əsl poeziya axşamı olan görüşdə köhnə-yeni yazdıqlarını həzin səsində oxucuları üçün söyləyən şair həyat, keçənlər barəsində də xatirələrini bölüşdü.

Hər nəsildən olan oxucularının suallarını, yaradıcılığı haqqındakı fikirlərini diqqətlə dinləyən şair poeziyanın bütün zamanlar üçün aktuallığını vurğuladı. Bildirdi ki, dünya nə qədər dəyişib, elm, texnika nə qədər inkişaf etsə də insan hissi, onun ifadə formaları üçün yaradıcılıq, ədəbiyyat, xüsusən də poeziya daim əsas vasitədir.

Nəriman Həsənzadə yeni çoxcildliyinin ilk cildinin nəşrinə görə Mədəniyyət Nazirliyinə minnətdarlığını da bildirdi: "Şairin, müəllifin hər kitabı, hər yeni nəşri bir sevincdir. Düzdür, indi çoxlarına elə gəlir ki, kitab oxunmur, onu kompüter əvəz edir. Maraqlıdır, kitab oxuyan dostlarım da belə deyir. Amma inanıram və bilirəm ki, kitab oxunur, sevilir və daim uca tutulur".

Poeziyasının işığında ömür yoluna nəzər salan, ilk sevgisindən ilk itkisinədək yaşadıqlarının yaradıcılığında öz əksini tapdığını bildirən şair "Mən oxucumdan heç bir sirr sözümü gizlətməmişəm. Deyə bilmədiklərimi kağıza, vərəqə demişəm. Vərəq də onlara çatdırıb. Yəni deyəcəyim fikri səssiz demişəm. Onlar da eşidib" deyərək oxucularına təşəkkürü də unutmadı.

**Həmidə Nizamiqızı**

# Tarix Muzeyində əcnəbi arxeoloqlarla görüş

Milli Azərbaycan Tarixi Muzeyində AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, dosent Azad Zeynalovun rəhbərlik etdiyi əcnəbi arxeoloqlardan ibarət ekspedisiya nümayəndə heyəti ilə görüş olub.

Muzeyin baş direktoru, akademik Nailə Vəlixanlı, baş mühafiz, dosent Məhfuzə Zeynalova və Arxeologiya elmi-fond şöbəsinin müdiri Nasir Quluzadənin iştirak etdiyi görüşdə əcnəbi arxeoloqlar Azərbaycanda və onun hüdudlarından kənarda aparılan Paleolit dövrü tədqiqatları və onun nəticələri haqqında ətraflı məlumat veriblər.



Qonaqlar Milli Azərbaycan Tarixi Muzeyi ilə birgə elmi-tədqiqat layihəsini reallaşdırmaq arzusunda olduqlarını bildiriblər. Qeyd edilib ki, layihənin əsas məqsədi Azıx mağarasında tapılan qədim insan – azıxantropun alt çənəsinin mütləq xronologiyası, eləcə də paleoantropoloji xüsusiyyətlərini müəyyənləşdirmək təşkil edir. Sözügedən layihənin reallaşdırılması ilə bağlı ilkin razılıq əldə olunub.

Sonda qonaqlara muzeyin nəşrləri hədiyyə edilib.

# Mədəniyyət evində Əhməd Cavadın 130 illiyi qeyd olunub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Müşfiqabad Mədəniyyət evində Əhməd Cavadın 130 illiyinə həsr olunmuş "Azərbaycanın istiqlal şairi Əhməd Cavad" adlı tədbir təşkil olunub.

Əvvəlcə uşaq xorunun ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mədəniyyət evinin bədii rəhbəri Mətanət Cəfərova alovlu şair, publisist, Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından biri olmuş Əhməd Cavadın məşəqqətli həyat yolundan danışıb.

Digər çıxış edənlər Ə.Cavad poeziyasından söhbət açıblar. "Aidə" xalq kollektivi üzvlərinin ifasında Ə.Cavadın sözlərinə yazılmış mahnılar tədbirə xüsusi rəng qatıb.

# "Sahibsiz sanılan nəğmələrimiz"

Hər nəğmənin öz tarixi, öz yaddaşı var, qəlbimizə hakim kəsilən bənzərsiz nəğmələr heç də boşuna yaranmayıb. Əbəs yerə deyilməyib ki, əsl musiqinin yaşı olmur. Gözəl musiqilər daim yaşayır və yaşayacaq. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın "Sahibsiz sanılan nəğmələrimiz" kitabında da əbədiyaşar bəstələrdən bəhs olunur.




Türkiyədə "Sofa Yayınları" tərəfindən nəfis şəkildə çap olunan kitab mədəniyyətimizin və musiqimizin qədim beşiyi olan Şuşanın düşmən işğalından azad edilməsinə ərməğan olaraq hazırlanıb.

Kitabı Türkiyə türkcəsinə tanınmış yazıçı-tərcüməçi İmdad Avşar çevirib. Onun kitaba yazdığı ön sözdə haqlı olaraq vurğulanır ki, mahnılar bizim kimliyimizdir, çünki hər şey dəyişsə də, onlar dəyişməz...

İmdad Avşar bildirir ki, hər mahnının, hər xalq musiqisinin bir kədərli, hüznlü hekayəsi var: "Xalqımızın müdrikliyindən süzülmüş bu sözlərin, deyimlərin əksəriyyətinin müəllifləri bəlli olmasa da, bunlar millətin əsl irsi və sərvətidir. Bir də sözləri və bəstəsi bizə məlum olan milli musiqi əsərlərimiz var. Bu sözləri qələmə alan şairlər də, bəstələyən sənətkarlar da eynilə "anonim" xalq mahnıları və melodiyasının yaradılması zamanı keçirdiyi acı hisslər kimi böyük ağrılar çəkiblər. Təbii ki, biz onları əsla unutmamalıyıq. Qənirə Paşayeva "Sahibsiz sanılan nəğmələrimiz"i elə bu məqsədlə yazıb. O, kitabında sanki Kərkükdə hoyrat oxuduğu üçün öldürülən şəhidlərə, Azərbaycanda "oxu tar" dediyi üçün Nargində güllələnən Mikayıl Müşfiqə, qardaşlarına "Çırpınırdın, Qara dəniz" deyə səslənən və bunun üçün öldürülən Əhməd Cavada, bu şeirə musiqi bəstələdiyi üçün ölüm ayağından dönən Üzeyir Hacıbəyliyə və başqa şair və yazıçılara ithaf edib".

"Çırpınırdın, Qara dəniz", "Ayrılıq", "Əziz dostum", "Sən gəlməz oldun", "Neyləyim" və digər mahnılar haqqında yazıların hər birində bu bəstələrin yaranma səbəbləri, onları unudulmağa qoymayan amillər, ilk ifaçıları, həmçinin bəstəkarları haqqında məlumatlar əksini tapıb. Bu mətinləri oxuduqca bir daha əmin olursan ki, musiqi təkcə insanın psixikasına deyil, onun orqanizminə, eləcə də mənəvi aləminə təsir göstərir. İnsan xoşuna gələn hər bir musiqini ürəyi ilə dinləyir. Alimlər ta qədimlərdən musiqi səslərinin tədqiqi ilə məşğul olublar. Onlar müəyyənləşdiriblər ki, müxtəlif tonda dinlənilən musiqi insanın halına müxtəlif cür təsir göstərir. Onu həyəcanlandırır, kədərləndirir, sakitləşdirir, sevindirir və s.

Qənirə Paşayeva musiqilərimiz və mahnılarımıza sahib çıxarkən millətə yol göstərən sözlərin yazarlarını, nəğmələri ilə bu millətin yaddaşında ölməz izlər buraxan bəstəkarları rəhmətlə yad etməyin vacibliyini söyləyir. Bu millət üçün hər bir əzaba qatlanan şair və bəstəkarların əsərlərinin onların adları çəkilmədən oxunmasını vəfasızlıq kimi dəyərləndirir. "Sahibsiz sanılan nəğmələrimiz" kitabı bizə dilimizdən düşməyən bu mahnıların söz və musiqi müəlliflərini yenidən yada salır.

Yaşanılan hər an vaxta, hər vaxt günə, günlər aya, aylar da ilə çevrilərək tarixə dönür. Dünən yaddaş, bu gün reallıq, gələcək isə ümid yerimizdir. Dünəni tarixə çevirərək bu gün bizə Qələbə sevinci yaşadanlar əbədi tarix yaradanlar və yazanlardır. Bu tarixi əbədiləşdirən bir amil də var ki, o da səs yaddaşıdır. "Sahibsiz sanılan nəğmələrimiz" kitabı da sahib olduğumuz bəstələrimizə, mahnılarımıza, səs saxlancımıza ucaldılan söz heykəlidir.

# Ömər Faiq Nemanzadə haqqında videoçarx hazırlanıb

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası Azərbaycan milli mətbuatının görkəmli nümayəndəsi, maarifçi-publisist Ömər Faiq Nemanzadənin 150 illiyi münasibətilə videoçarx hazırlayıb.

Videoçarxda qeyd olunur ki, Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş "Qeyrət" mətbəəsinin və "Molla Nəsrəddin" jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. O, "Molla Nəsrəddin" jurnalında, eləcə də dövrün bir sıra qəzet və jurnallarında ("Açıq söz", "Tərəqqi", "İrşad", "Həyat", "Rəncbər", "Adıgün kolxozçusu", "Kommunist", "Qızıl bayraq" və s.) yazılarla çıxış edib. Müxtəlif mətbuat orqanlarındakı fəaliyyəti onu yetkin qələm sahibi kimi tanıtmaqla yanaşı, düşmənlər də qazandırıb.

Repressiya qurbanı olan görkəmli ziyalı 1937-ci ildə saxta ittihamlarla həbs edilərək güllələnib.

# Unudulmaz şair, xeyirxah insan

Ədəbiyyata ötən əsrin ikinci yarısında gələn, poeziyamıza gözəllik bəxş edən və söz xəzinəmizi zənginləşdirən şairlərimizdən biri də Əməkdar incəsənət xadimi Həmid Abbas olub.



Həmid Məmmədəli oğlu Abbas 10 oktyabr 1935-ci ildə Ağstafada dünyaya göz açıb. 1953-cü ildə 22 saylı dəmiryol orta məktəbini bitirir. Bakıya gəlir və ADU-nun (indiki BDU-nun ) Filologiya fakültəsinə qəbul olur. Ali təhsilini 1958-ci ildə başa vurur. Təyinatı Azərbaycan Dövlət İnformasiya Agentliyinə (Azərinform, indiki AZƏRTAC) verilir. Tərcümə şöbəsində ədəbi işçi kimi əmək fəaliyyətinə başlayır. Müxbir, tərcüməçi, yerli mətbuat üçün xəbərlər şöbəsinin redaktoru vəzifələrində işləyir.

Həmid Abbas ədəbiyyata ötən əsrin 50-ci illərində gəlib. İlk mətbu əsəri 1957-ci ildə "Sovet Ermənistanı" (Azərbaycan dilində) qəzetində dərc edilən "Dilican" şeiri olub. Sonra "Gəncliyin səsi" ədəbi almanaxında, dövri mətbuatda şeirləri müntəzəm işıq üzü görür. Şeirlərinə tanınmış bəstəkarlar musiqi bəstələyir. "Tarla qızları" adlı ilk şeirlər toplusu "A.Həmid" imzası ilə işıq üzü görür.

Vəzifə pilləsində irəli çəkilən şair Azərbaycan KP MK-da Təbliğat və təşviqat, Təşkilat-partiya işi şöbələrində çalışır. 1978-ci ildə Ali Partiya Məktəbini fərqlənmə diplomu ilə bitirir. 1981-ci ildən Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri olur. "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür, "Şərəf nişanı" ordeni ilə təltif edilir.

Araşdırmalarda qeyd edilir ki, onun 200-dən çox şeirinə mahnı bəstələnib. Elə buna görə də xalq arasında nəğməkar şair kimi tanınıb. Görkəmli ədəbiyyatşünas Qulu Xəlilov şairin "Ürəyə toxunma" kitabına ön sözdə yazır ki, onun şeirlərində həyatın işıqlı tərəfləri, insanların zərif və incə duyğuları, arzu və istəkləri, qurub-yaratmaq həvəsi, övlad, ata-ana məhəbbəti qələmə alınıb.

Şair əsərlərində insanların ağlı, zəkası, zəhməti, təbiətin füsunkar gözəlliklərini ilham və məhəbbətlə tərənnüm edib:

*Qışda el köçəndə köçə bilmədi,*
*Quşlara qoşulub uça bilmədi,*
*Şaxtadan ağzını aça bilmədi,*
*Qaldı dodağında sözü bulağın.*

Şair bu qoşması ilə insanı bir anlıq düşündürən sənət lövhəsi yaradıb. Sözlər və obrazlar sənətkarlıqla seçilib.

Müxtəlif illərdə bir-birindən fərqli və məzmunlu "Ömrün elə çağıdır ki", "Ürəyə toxunma", "Günahım olsa", "Dinlədi nəğməmi sirdaşım mənim", "Nər igidlər, alov saçın", "Şuşa həsrəti, türk həqiqəti", "Gözüm səni axtarır" və s. kitabları işıq üzü görüb.

"Nəğməli Azərbaycan", "Zirvədə" poemalarında zəhmətkeş insanların əməyini, nəcib arzularını nəzmə çəkən Həmid Abbas genişqəlbli, açıqürəkli, xeyirxah bir insan olub. Araşdırmalarda qeyd edilir ki, o, evinə, iş yerində qəbuluna gələnləri böyük səmimiyyətlə qarşılayıb, diqqətlə dinləyib. Şair Ramiz Heydər onun bu insani keyfiyyətlərinə bir şeir həsr edib:

*Bir gör neçə yaxının,*
*Gör neçə dostun olub.*
*Nəcibliyin, mərdliyin*
*Dillərdə dastan olub.*

Yazıçı Tariyel Cahangir Həmid Abbasın Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri işləyən zaman şahidi olduğu bir əhvalatdan bəhs edir: "Bir gün şair İslam Sadıqla onun yanında olduq. Xeyli söhbət etdik. Bu əsnada Respublika Televiziya və Radio Verilişləri Komitəsinin sədrinə zəng vurdu. Oğlu Ayazı işə qəbul etməsini xahiş etdi. Sədr ona dedi ki, Ayaz sənədləri götürüb komitəyə gəlsin. Həmid müəllim sədrlə sağollaşıb telefonun dəstəyini yerə qoyanda qapı döyüldü. İçəri gənc bir qız daxil oldu. Həmid Abbas ayağa qalxdı və gənci mehribanlıqla qarşıladı. Ona yer göstərdi və gəlişinin səbəbini soruşdu. Qız sıxıla-sıxıla dedi ki, üç ildir universitetin Jurnalistika fakültəsini bitirmişəm. Ancaq iş tapa bilmirəm. Həmid müəllim gülümsündü, bir daha komitə sədrinə zəng vurdu və dedi: "Yanıma iş üçün kimsəsiz bir gənc gəlib. Xahiş edirəm, Ayazın yerinə onu işə qəbul edin". Jurnalist qız razılıq edib sevinə-sevinə otaqdan çıxdı...".

İncəqəlbli şair etibarlı dost, qayğıkeş ata və vəfalı ömür yoldaşı olub. Ömür-gün yoldaşının vaxtsız ölümündən sonra ona "Dirilə biləydin bircə anlığa", "Qaldı", "Süzülür kağıza ürək sözlərim", "Gözüm səni axtarır", "Nağıl deyən vaxtı nağıla döndü", "Əlimdə gül, gözümdə yaş" və s. şeirlər həsr edib.

Həmid Abbas 19 noyabr 1999-cu ildə vəfat edib.

**Savalan Fərəcov**

Xurşidbanu Natəvan – 190

# Xatirələrdə yaşayan Xan qızı

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində öz yeri, öz xidmətləri olan Xurşidbanu Natəvanın adı həmişə Qarabağımız, onun tacı Şuşa ilə qoşa çəkilir. Bu il Xan qızı üçün ikiqat əlamətdardır: şairənin 190, dünyaya göz açdığı Şuşanın isə 270 illiyidir.

Xurşidbanu Natəvan 1832-ci ildə Şuşada, Qarabağın son hakimi Mehdiqulu xan Cavanşirin ailəsində dünyaya gəlmişdir. O, ailənin yeganə övladı, həm də Qarabağ xanlığının sonuncu varisi olduğu üçün sarayda "Dürrü-yekta" ("Tək inci"), el arasında isə "Xan qızı" çağırılmışdır. Xurşidbanu saray tərbiyəsi görmüş, dövrün tanınmış alim və sənətkarlarından dərs almışdır. Onun dərin və hərtərəfli biliyi, zəngin istedadı ilə bərabər gözəl rəsmlər çəkməsi, musiqini, o cümlədən muğamı bilməsi dövrünün görkəmli şəxsiyyətləri tərəfindən yüksək dəyərləndirilmişdir.

O, yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamışdır. İlk vaxtlar onun "Xurşid" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. 1870-ci ildən etibarən şairə özünə "Natəvan" (köməksiz, zəif) təxəllüsü götürərək dərin məzmunlu qəzəllər qələmə almışdır.

Natəvan öz xeyriyyəçiliyi ilə də Şuşa əhalisinin qəlbinə yol tapmışdı. O, 1873-cü ildə Şuşadan yeddi kilometr aralı olan Sarı Baba təpəsindəki su mənbəyindən şəhərə su kəməri çəkdirmiş, sonra böyük su anbarı tikdirmiş, hovuz, hamam və buzxana düzəltdirmişdir. Şəhər əhalisinin gəzintisi və istirahəti üçün yaşadığı evin günbatanında bağ saldırmışdır.

Natəvanın həyatındakı maraqlı faktlardan biri də onun 1858-ci ildə Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma (ata) ilə görüşməsi olmuşdur. Həyat yoldaşı Xasay xanın mükəmməl fransız dili bilgisi nəticəsində onlar dostlaşmışdılar. A.Dümanın "Qafqaza səyahət" kitabında bu görüş haqqında məlumat öz əksini tapmışdır. Xurşidbanu Natəvan 1897-ci il oktyabrın 2-də Şuşada vəfat etmiş, Ağdamdakı İmarət qəbiristanlığında dəfn olunmuşdur.



Natəvanın xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan və bir çox xarici ölkələrdə şairənin abidəsi ucaldılmışdır. 1960-cı ildə qoyulan ilk heykəlin müəllifi Xalq rəssamı Ömər Eldarovdur. 1980-ci ildə anadan olmasının 150 illiyi münasibətilə Ağdamda İmarət adlanan memarlıq kompleksində Natəvanın qəbirüstü abidəsi qoyulmuşdur. Abidənin müəllifi heykəltəraş Elcan Şamilovdur. O, mövzunu xüsusi qayğı və səmimiyyətlə işləmiş, Natəvanı təkcə bədii söz ustası kimi yox, həm də bir ana, zərif qadın kimi təsvir etmişdir. Kompozisiyada əsas iki xətt – kədər və nikbinlik dolğun şəkildə öz əksini tapmışdır. Onun üzündə məruz qaldığı bütün ağrı və çətinliklərlə yanaşı, xeyirxahlığın da izləri görünür. Natəvan təkcə əzabçəkən bir qadın deyil, həm də mənəviyyatca gözəl insan, mübariz qəhrəmandır.

Təəssüflər olsun ki, otuzillik işğal zamanı erməni vandalları tərəfindən Natəvanın məzarı və abidəsi dağıdılıb. Vətən müharibəsində Qələbəmizdən sonra azad Ağdamda aparılan bərpa-quruculuq işləri çərçivəsində Natəvanın abidəsi yenidən ucaldılmışdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu günlərdə, oktyabrın 4-də Natəvanın bərpa olunmuş qəbirüstü abidəsinin açılışını etmişlər.

Qəbirüstü abidə özünün ilkin görkəmi əsasında heykəltəraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanmış və əvvəlki yerində quraşdırılmışdır. 1982-ci ildə ucaldılmış və Elcan Şamilovun müəllifi olduğu qəbirüstü abidənin daş yonulması işlərini görmüş Rəfi Zeynalov 40 il sonra da eyni abidənin hazırlanması üçün daş yonmuşdur.

Əməkdar rəssam Namiq Dadaşov tərəfindən 1982-ci ildə Şuşada şairənin tunc büstü ucaldılmışdı. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən şəhər işğal olunduqdan sonra bu abidə ilə yanaşı Üzeyir bəy və Bülbülün də büstləri vandalizmə məruz qalmışdı. "Güllələnmiş heykəllər" kimi tanınan bu abidələr Şuşa azad edildən sonra əzəli məkana qaytarılmışdır.

2016-cı ildə Belçikanın Vaterlo şəhərinin mərkəzi parkında abidəsi qoyulmuşdur. Heydər Əliyev Fondunun dəstəyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən işlənmiş heykəlin postamentində "Şərqin müasir maarifçi və şairə qadını Xurşidbanu Natəvan, Qarabağ şahzadəsi, Azərbaycan" sözləri yazılmışdır.

2017-ci ildə Fransanın Evian-le-Ben şəhərindəki Azərbaycan parkında Xurşidbanu Natəvanın xaricdə qoyulmuş növbəti heykəlinin açılış mərasimi olmuşdur. Heykəlin müəllifləri isə Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayevdir.

Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyi də Xan qızının həyat və yaradıcılığı diqqət mərkəzində saxlayır, onun xatirəsinə həsr olunmuş tədbirlər təşkil edir. 2019-cu ildə Novruz bayramı ərəfəsində təşkil edilmiş "Məclisi-üns" – Xan qızının qonaqları" adlı ədəbi-bədii tədbirdə təbliğ olunan bayram ənənələri Xurşidbanu Natəvanın lirikasına boyanmışdı.

Xurşidbanu Natəvan Şərq dünyasında tək inci kimi parlayan yaradıcı qadın, xeyirxahlığı ilə sayılıb-seçilən "El anası" olaraq yaddaşlardan heç zaman silinməyəcək.

**Leyla Zeynalova**
**Azərbaycan Milli Xalça Muzeyinin elmi işçisi**

# Oriyentalizmdən ilham alan şərqli rəssam

İlklər hər zaman unudulmaz və dəyərli olmağla yanaşı, inkişafın da başlanğıcıdır. Osmanlı rəngkarlığının banisi hesab olunan Osman Hamdi bəy (1842-1910) İstanbulda Sədrəzəm (Baş vəzir) İbrahim Ethem paşanın ailəsində dünyaya gəlmişdir. Fransaya hüquq təhsili almağa göndərilsə də, kiçik yaşlardan qrafik işlərinin ecazkarlığı ilə sübut olunan rəssam həvəsi və marağı onu Fransada İncəsənət Akademiyasında Jan-Leon Jerom və Gustave Boulanger kimi rəssamların emalatxanasında təhsil almağa istiqamətləndirir. Fransaya təhsil üçün göndərilən Süleyman Seyyid və Şeker Ahmed Paşa ilə birlikdə 1867-ci ildə Parisdə keçirilən beynəlxalq sərgidə iştirak edərək, orada 3 əsərini nümayiş etdirir. Təəssüf ki, onun sərgidə təqdim etdiyi "Çingenelerin molası", "Pusuda Zeybek" və "Zeybeğin ölümü" adlı əsərlərinin sonrakı aqibəti və hazırda harada olduğu haqda məlumat yoxdur.



Vətəninə qayıtdıqdan sonra İstanbulda Sarayda protokol müdiri müavini və digər dövlət vəzifələrində çalışan Osman Hamdi bəy vaxtından əvvəl təqaüdə çıxır. Vaxtını daha çox Gebzenin Eskihisar kəndində yerləşən evində rəsm çəkməklə keçirir. 1881-ci ildə Müzey-i Humayun (İmperatorluq Muzeyi) – indiki İstanbul Arxeologiya Muzeyinin müdiri Anton Dethier vəfat etdikdən sonra bu vəzifəyə təyin edilir. 1882-ci ildə Sultan II Abdülhəmid tərəfindən Türkiyənin ilk incəsənət məktəbi olan Sanayi-i Nefise məktəbinə (indiki Mimar Sinan Güzel Sanatlar Üniversitesi – Memar Sinan adına İncəsənət Universiteti) müdir təyin olunur.

Müzey-i Humayun müdiri olduqdan sonra Osman Hamdi bəyin ilk qərarı 1874-cü ildə qəbul olunan "Ətniq əsərlər nizamnaməsi"nə ("Asar-ı Atika Nizamnamesi") düzəlişlər edilməsi ilə bağlı olur. 1883-cü ildə edilən dəyişiklik Qərb ölkələrinə Osmanlı torpaqlarından əntiq əşyaların aparılmasının qarşısını almaq məqsədi daşıyırdı. Muzey müdiri olduğu zamanlarda ilk türk elmi arxeoloji qazıntılarını da başladan Osman Hamdi bəy Nəmrut dağı, Lagina (Muğla) və antik dövrə aid Sidon olan Saydada (Livan) arxeoloji qazıntılar həyata keçirir. Saydada tapıntılar arasında arxeologiya dünyasının şah əsəri hesab olunan İskəndərin sarkofaqı da var. Sözügedən əsərlər hazırda İstanbul Arxeologiya Muzeyində sərgilənməkdədir. Osman Hamdi bəy onu məşhurlaşdıran bu araşdırmalar və qazıntılarla əlaqəli Solomon Reinach ilə birlikdə "Sayda Kral məzarlığı" adlı bir kitab yazır və o, 1892-ci ildə Parisdə nəşr olunur.

Bütün bunlarla yanaşı, Osman Hamdi bəy rəssam kimi də məşhurlaşmışdı. Fransada rəsm dərsləri alan oriyentalist rəssamın yaradıcılığı digərlərindən fərqlənirdi. Onun Osmanlı incəsənətinə ilk qadın fiqurunu və çoxfiqurlu kompozisiyaları gətirən rəssam olduğu da güman edilir. Rəsmlərində Osmanlı geyimlərinin dəqiqliklə təsviri, memarlıq abidələrini fon olaraq istifadəsi, böyük ölçülü əsərlər işləməsi yaradıcılığına xas olan əsas xüsusiyyətlərdir.

Bəzi tənqidçilərin onun yaradıcılığında ateistliyi təbliğ etməsinə dair fikirləri Osman Hamdinin dini motivlərdə dini deyil, insan daha ön plana çəkməsindən irəli gəlir. O cümlədən saçı görünən qadın fiqurlarının məsciddə və ya Quran oxuyarkən təsvirləri yer alan əsərləri dövrünün müsbət qarşılanmayan əsərlərindəndir.

Rəssamın "İki musiqiçi qız" əsəri digər müasirlərinin adət etdiyi qadın obrazları, donuq pozalardan fərqli olaraq hərəkətli, gündəlik həyatdan olan hadisələrin əks olunduğu tablodur. O, tabloda musiqiçi qızların ətrafında yerləşən detalların hər birini dəqiqliklə təsvir etməyə çalışıb. Məscidin içərisində kaşıların ornamenti, qızların geyimlərinin detalları, həmçinin saçlarına bağladıqları yaylıqların rənginin geyimlərinin rəngi ilə ta-



mamlanmasına qədər bütün detallar incəliklə təsvir edilib. Oriyentalist rəssamların Şərq insanlarını əsasən istirahətdə təsvir etdiyinin əksinə Osman Hamdi obrazları hərəkətdə, proses əsnasında əks etdirib.

Onun Osmanlı rəssamlıq tarixində iz qoyan, bu gün də tədqiq olunan və maraq doğuran əsəri "Kaplumbağa Terbiyecisi"dir ("Tısbağa tərbiyəçisi", əsl adı "Kaplumbağalar ve adam"). Bu əsərin 1906 və 1907-ci illərdə yaradılan iki nüsxəsi mövcuddur. 1906-cı ildə çəkilən tablo sonralar Erol Aksoy adlı iş adamı tərəfindən 1 milyon dollara alınaraq İqtisad Bankının kolleksiyasına daxil edilib, daha sonra auksiona çıxarılaraq 3,5 milyon dollara Pera Muzeyi tərəfindən alınıb və indiyədək burada sərgilənməkdədir. Rəssamın 1907-ci ildə yaratdığı ikinci nüsxə Belma Simavi kolleksiyasında saxlanılır.

Əsərdə Bursadakı Yaşıl Caminin üst mərtəbəsində yerləşən bir otaqda divarda tökülmüş mavi kaşıların fonunda mərkəzdə (rəssamın özünün obrazının olduğu güman edilən) yaşlı adam, yaşlı adamın ayağının altında yarpaqları yeyən tısbağalar və yaşlı adamın çiynində nağara, əlində isə ney tutmuş halda kiçik hekayəyə bənzər motiv təsvir olunub. Orientalist rəssamlarda tez-tez rast gəlinən əsərlərin bir neçə nüsxəsinin olması Osman Hamdinin də yaradıcılığında özünü göstərir. Eyni zamanda bu nüsxələri bir-birindən fərqləndirmək mümkündür. Tablonun ilk variantında beş, ikincidə isə səkkiz tısbağa var. İlk nüsxəyə əlavə olaraq, ikinci nüsxədə interyerdə sağ yuxarı tərəfdə divarda tablo və pəncərədə qab təsvir olunub.

Bu əsərin məzmununun açılması haqda bir neçə fərziyyə mövcuddur. Daha çox söylənən fərziyyəyə görə, rəssam asta və təmkinli hərəkət edən tısbağaların əhliləşdirilməsi ilə bürokratları manipulasiya etmək cəhdinin qəlizliyini əks etdirmək istəyib. Osman Hamdi bəyin "Tour du Monde" adlı fransızca jurnalda 1869-cu ildə L.Crepon tərəfindən yapon milli qravürası əsasında təsvir olunmuş "Tısbağa tərbiyəçisi" (Charmeur de tortues) qravürasından təsirləndiyi də ehtimal olunur. Rəssamın bu haqda atasına bir məktubda "Mənə göndərdiyin "Tour du Monde"ni oxudum" yazması bu fərziyyəni gücləndirir.



Rəssamın maraq doğuran digər bir əsəri "Silah taciri"dir. Bu əsərdə də, digər əsərlərində olduğu kimi, hadisələrin baş verdiyi məkan incəliklə həll olunub, obrazlar bu məkana uyğun yerləşdirilib. Əsərin mərkəzindəki iki insanın obrazının Osman Hamdi bəyin avtoportreti olduğu güman edilir. İki müxtəlif yaş dövründə olan obrazların xüsusiyyətlərini, dinamikliyini real təsvir edərək, yaşlı personajın yorğun halda oturub gənc tacirin qılıncı əlində yellətməsinə tamaşa etməsi izləyiciyə hər iki obrazın əhvalını aşılayır.

Osman Hamdi bəy 24 fevral 1910-cu ildə İstanbulda vəfat edib və vəsiyyətinə əsasən Eskihisardakı bağ evində dəfn olunub. Məzarının üzərində qədim Səlcuq dövrünə aid iki sarkofaq qoyulub. Eskihisarda yerləşən evi 1987-ci ildən Osman Hamdi bəyin ev-muzeyi olaraq istifadədədir.

**Şəbnəm Əzizova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Xatirə təqvimi — 15-18 oktyabr

### Azərbaycan

**15 oktyabr 1910** – Tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Hüseyn Əli oğlu Seyidzadə (1910 – 2.6.1979) İrəvan şəhərində anadan olub. "O olmasın, bu olsun", "Koroğlu", "Dəli Kür", "Yenilməz batalyon", "Qayınana" filmlərini çəkib.

**15 oktyabr 1919** – Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti mətbuat azadlığına geniş imkanlar yaradan qanun qəbul edib. Həmin dövrdə Azərbaycan və rus dillərində fərqli siyasi mövqeləri əks etdirən 50-dən çox qəzet nəşr olunurdu.

**15 oktyabr 1928** – Xalq rəssamı Yusif İsmayıl oğlu Hüseynov (1928 – 1.9.2009) Bakıda doğulub. Yaradıcılığı kitab və dəzgah qrafikası, siyasi plakatlar və rəngkarlıq əsərləri ilə zəngindir. 1977-1987-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri olub.

**15 oktyabr 1932** – Şair Hafiz Həbib oğlu Baxış (1932 – 7.9.1989) Zəngəzur mahalının Yuxarı Kirətağ kəndində doğulub. Sözlərinə populyar mahnılar bəstələnib.

**15 oktyabr 1933** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Nurəddin Xeyrulla oğlu Babayev (1933-2012) anadan olub.

**15 oktyabr 1938** – Azərbaycan teatr tarixində xidmətləri olmuş tanınmış aktrisa Panfiliya Nikolayevna Tanailidi (1891-1938) repressiya edilərək güllələnib. Milliyyətcə yunandır. Tiflis Azərbaycan teatrında, 1925-ci ildən Akademik Dram Teatrında çalışıb.

**15 oktyabr 1946** – Əməkdar mədəniyyət işçisi, kinoşünas, kino təşkilatçısı Abbas İbrahim oğlu Əliyev (1946-2008) anadan olub.

**15 oktyabr 1951** – Əməkdar artist, aktyor, rejissor Zilli Yunus oğlu Namazov (1951 – 27.12.2021) anadan olub. "Azərbaycanfilm" Kinostudiyasında çalışıb.

**15 oktyabr 1988** – Kristalloqrafiya sahəsində məşhur alim, Azərbaycan EA-nın müxbir üzvü Xudu Surxay oğlu Məmmədov (14.12.1927 – 1988) vəfat edib. Sənətşünaslıqla bağlı yazıların, "Naxışların yaddaşı", "Qoşa qanad" və s. kitabların müəllifidir.

**15 oktyabr 1996** – Tanınmış diktor, Əməkdar artist Gültəkin Əjdər qızı Cabbarlı (9.3.1929 – 1996) vəfat edib.

**15 oktyabr 2016** – Əməkdar artist, tanınmış rəqqas Kamil Hənifə oğlu Dadaşov (26.9.1936 – 2016) vəfat edib.

**16 oktyabr 1923** – Xalq yazıçısı, şair, ədəbiyyatşünas Gülhüseyn Hüseynoğlu (Gülhüseyn Hüseyn oğlu Abdullayev; 1923 – 8.7.2013) Masallı rayonunun Mollaoba kəndində doğulub. Azərbaycan ədəbiyyatında mənsur şeirin dəyərli nümunələrini yaradıb. BDU-nun professoru olub.

**16 oktyabr 1923** – Əməkdar incəsənət xadimi, bəstəkar Asya Baxış qızı Sultanova (1923 – 22.11.2021) Bakıda anadan olub. 1950-ci illərdən Moskvada yaşayıb, mahnılarını dövrün məşhur müğənniləri oxuyublar.

**16 oktyabr 1926** – Bəstəkar, pedaqoq, Xalq artisti, professor Ramiz Mustafayev (1926 – 10.4.2008) anadan olub. "Vaqif", "Polad", "Xan və əkinçi" operalarının, operettaların, simfoniyaların və s. müəllifidir. 1940-cı illərdə Akademik Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

**16 oktyabr 1935** – Yazıçı və kinodramaturq Əli Hüseyn oğlu Qafarov (1935-1979) anadan olub. "Azərbaycanfilm"də çəkilmiş bir neçə bədii ("Qızıl qaz", "Çarvadarların izi ilə") və sənədli filmlərin ssenari müəllifidir.

**16 oktyabr 1946** – Kinooperator Köçəri Məmmədov (1946-2008) Gədəbəy rayonunda doğulub. Azərbaycanın yeni tarixini əks etdirən sənədli və xronikal filmlərin operatoru olub.

**17 oktyabr 1915** – Operator, rejissor, Xalq artisti Cavanşir Musa oğlu Məmmədov (1915-1997) Şuşada doğulub. Müharibə illərində (1941-1945) Mərkəzi sənədli filmlər studiyasında fəaliyyət göstərib. Bakı kinostudiyasında sənədli filmlər çəkib.

**17 oktyabr 1924** – Şair Hüseyn Razi (Hüseyn Məmməd oğlu Rzayev; 1924 - 17.2.1998) Ordubad rayonunun Dəstə kəndində anadan olub.

**17 oktyabr 1936** – Yazıçı Çingiz Əbülhəsən oğlu Ələkbərzadə (1936 – 7.1.1999) anadan olub. "Güllələr dənizdə sönür", "Qızıl yəhərli at" və s. kitabların, "Vulkana doğru" filminin ssenari müəllifidir.

**17 oktyabr 1949** – Tanınmış dilçi alim, türkoloq, filologiya elmləri doktoru Məhəbbət Mirzəxan qızı Mirzəliyeva (1949 – 22.7.2016) Bakıda anadan olub.

**17 oktyabr 2003** – Tanınmış şair Nüsrət Yusif oğlu Kəsəmənli (29.12.1946 – 2003) vəfat edib. Bir çox şeirlərinə musiqi bəstələnib, sənədli filmlərin ssenari müəllifidir. "Azərbaycanfilm"də baş redaktor işləyib, "Doğma sahillər" filmində çəkilib.

**18 oktyabr 1926** – Teatr rejissoru, pedaqoq Nəsir Müseyib oğlu Sadıqzadə (1926-1996) Şuşada anadan olub. Akademik Dram, Gəncə, Sumqayıt və b. teatrlarda çalışıb, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. Filmlərdə ("Qətl günü", "Bəxt üzüyü" və s.) çəkilib.

**18 oktyabr 1949** – Tanınmış rejissor, aktyor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu (Həsənov; 1949 – 12.5.2011) Bakının Mərdəkan qəsəbəsində doğulub. Musiqili Komediya, Milli Dram teatrlarında tamaşalar hazırlayıb. 1989-cu ildə Yuğ teatrını yaradıb. Filmlərdə çəkilib: "Qəm pəncərəsi", "Otel otağı" və s.

### Dünya

**15 oktyabr 1814** – Rus şairi, yazıçı, dramaturq Mixail Yuryeviç Lermontov (1814 – 27.7.1841) anadan olub. Əsərləri: "Zəmanəmizin qəhrəmanı" (roman), "Mtsıri", "Hacı Abrek", "Qafqaz əsiri" (poema), "Maskarad" (pyes) və s. Azərbaycanda olub, "Aşıq Qərib" dastanını qələmə alıb.

**15 oktyabr 1844** – Alman filosofu Fridrix Nitsşe (Friedrich Wilhelm Nietzsche; 1844 - 25.8.1900) anadan olub. Dünya fəlsəfi fikrinə güclü təsir edən əsərlərin müəllifidir: "Faciənin doğuluşu", "Zərdüşt belə deyirdi", "Xeyir və şərdən o yana", "Bütlərin qürubu" və s.

**15 oktyabr 1929** – Serb şairi, yazıçı, tərcüməçi Milorad Paviç (1929-2009) anadan olub. Xəzər xaqanlığından (VIII-IX əsrlər) bəhs edən "Xəzər lüğəti" tarixi-ensiklopedik romanının müəllifidir.

**16 oktyabr 1888** – Amerika dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1936) Yudjin O'Nil (Eugene Gladstone O'Neill; 1888-1953) anadan olub. Pyesləri: "Üfüqün arxasında", "Buz paylayan gələcək", "Qarağaclar altında məhəbbət".

**16 oktyabr 1927** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1999) Günter Qrass (Günter Wilhelm Grass; 1927 – 13.4.2015) anadan olub. Əsərləri: "Tənəkə təbili", "Pişik və siçan", "İt illəri", "İblisin gündəliyindən".

**17 oktyabr 1760** – Fransız mütəfəkkiri və sosioloq Klod Sen-Simon (Claude-Henri de Rouvroy, Comte de Saint-Simon; 1760-1825) anadan olub.

**17 oktyabr 1849** – Polyak bəstəkarı və pianoçusu, romantizmin parlaq nümayəndəsi Frederik Şopen (Fryderyk Chopin; 22.2.1810 – 1849) vəfat edib. Vals, noktürn, ballada, sonata və digər janrlarda əsərlərin müəllifidir.

**17 oktyabr 1915** – Amerika dramaturqu Artur Miller (Arthur Aster Miller; 1915-2005) anadan olub. Əsərləri: "Mənim bütün oğullarım", "Kommivoyacerin ölümü", "Sərt sınaq" və s.

**18 oktyabr 1859** – Fransız filosofu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1927) Anri Berqson (Henri-Louis Bergson; 1859-1941) anadan olub. Əsərləri: "Yaradıcılıq təkamülü", "Materiya və yaddaş".

**18 oktyabr 1926** – Amerika müğənnisi və bəstəkarı, rok-n-rolun ilk ifaçılarından biri Çak (Çarlz) Berri (Charles Edward Anderson Berry; 1926-2017) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

№76 (1949)
14 oktyabr 2022
www.medeniyyet.az

# İstanbulda və Qaziantepdə azərbaycanlı rəssamların sərgiləri açılıb





İstanbulda Azərbaycanın Əməkdar incəsənət xadimi, rəssam Rafiq Əzizin fərdi sərgisi açılıb. Sərgi İstanbul Böyükşəhər Bələdiyyəsinin 2022-2023-cü il mədəniyyət-sənət mövsümünün açılışı çərçivəsində reallaşıb.

"Yeditepe İstanbul" mövzulu sərgi Cemal Reşit Rey konsert salonunda təşkil edilib.

İstanbulun bənzərsiz təbiəti, zəngin tarixi və hər dövrə aid sosial həyatı Rafiq Əzizin tablolarında əks olunub. Sərgidə nümayiş etdirilən yağlı boya ilə işlənmiş 42 əsərdən 33-ü İstanbula, 9-u isə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə həsr olunub.

Sərgi bir ay davam edəcək. Qeyd edək ki, "Yeditepe İstanbul" mövsümün açılışı münasibətilə keçirilən ilk rəsm sərgisidir.

***

Türkiyədə yaşayıb-yaradan azərbaycanlı rəssam Məhəmməd Əliyev 44 günlük Vətən müharibəsində tarixi Zəfərə həsr edilmiş yeni kolleksiya üzərində işləyir.

Bu il 70 illik yubileyi tamam olan rəssamın Qaziantep şəhərində fərdi sərgisi açılıb. Şəhid Kamil Sənət Akademiyasının qalereyasında təşkil olunan "Sənətdə 60 il" adlı sərgi böyük maraqla qarşılanıb.

Məhəmməd Əliyevin yağlı boya, keramika, qrafika janrında yaratdığı əsərlər ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycan, Rusiya, Türkiyə, ABŞ, İngiltərə, Avstriya, Almaniya, Fransa və digər ölkələrdə sərgilərdə nümayiş olunub. Bakı, İstanbul, Ankara və hazırda yaşadığı Qaziantep şəhərində təşkil edilən fərdi sərgiləri böyük maraq doğurub.

1996-cı ildə qardaş ölkəyə köçən Məhəmməd Əliyev hazırda yaradıcılıqla yanaşı Qaziantep Universitetində pedaqoji fəaliyyətini də davam etdirir, sənətinin sirlərini gənc nəsillərlə bölüşür.

# "Açar" filmi Fransada festivalda iştirak edəcək

"OB Film" və "Epic Production" şirkətlərinin birgə istehsalı olan "Açar" qısametrajlı bədii filmi 29 noyabr – 3 dekabr tarixlərində Fransanın Aix-en-Provence şəhərində keçiriləcək 40-cı "Festival Tous Courts" Beynəlxalq Qısa Film Festivalının müsabiqə proqramına salınıb.

2020-ci ildə çəkilən ekran əsəri Qarabağda işğal olunmuş evinin sonuncu yadigarı və nişanəsi olan açarları illərlə qoruyub saxlayan Ümid kişinin hekayəsindən bəhs edir.

Qeyd edək ki, premyerası bu ilin aprelində Niderlandda "Go Short – International Short Film Festival Nijmegen"də baş tutan "Açar" filmi oktyabr ayı ərzində İsveçdə "SAMA International Film Festival", Makedoniyada "KineNova Skopje International Film Festival", Türkiyədə "Accessible Film Festival"da da iştirak edəcək.

Filmin ssenari müəllifi və quruluşçu rejissoru Elşad Əliyev, görüntü rejissoru Cavid Oruclu, quruluşçu rəssamı Arif Niftiyev, montaj rejissoru Elşad Rəhimov, səs rejissoru Mehman Nadirov, prodüserləri Orxan Behbid, Senur Əhədov və Mətin Ələkbərlidir.

Filmdə Qurban İsmayılov, Rasim Cəfər, Reyhan Cəfər, Hüseyn İsgəndərov, Yusif Şeyxov, Zemfira Əbdülsəmədova, Arif Kərimov, Rövşən Ağayev, Eldar Cəbrayıl, Selin Cəbrayıl və başqaları çəkiliblər.




# Çexiyada Azərbaycan mədəniyyəti ilə bağlı musiqili təqdimat



Çexiyanın Brno şəhərində Azərbaycan mədəniyyətinə həsr olunmuş musiqili təqdimat keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Çex-Azərbaycan Birliyinin Brno üzrə nümayəndəsi Emin Rəsulzadənin təşəbbüsü ilə baş tutan tədbirdə soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə ölkəmizin tarixi, zəngin mədəniyyəti və adət-ənənələri barədə məlumat verilib, "Şərbət" musiqi qrupunun ifasında Azərbaycan xalq mahnıları və bəstəkarlarımızın populyar nəğmələri səsləndirilib.

Milli mətbəximizin təamlarının təqdim olunduğu tədbirdə əyləncəli oyunlar da keçirilib. Qaliblərə kitablar, Azərbaycan çayı və şərabı hədiyyə edilib.

# "XAZART" incəsənət simpoziumu

Mədəniyyət Nazirliyinin dəstəyi, "Leyla Khazary ArtGallery" və "Qalaalti Hotel & Spa"nın təşkilatçılığı ilə 7-15 oktyabr tarixində "XAZART" incəsənət simpoziumu keçirilir.



Simpoziumun məqsədi ictimaiyyət nümayəndələrinin iştirakı ilə təsviri incəsənətdə müasir tendensiyaları müəyyənləşdirmək, geniş tamaşaçı kütləsi arasında müasir rəngkarlığı təbliğ etməkdir. Tədbir eyni zamanda bölgələrdə bədii həyatın canlanması, yerli istedadların yaradıcılığa həvəslərinin artırılması, paytaxtla əyalət arasında yaradıcılıq münasibətlərinin təkmilləşdirilməsi məqsədi daşıyır.

Simpoziumun təşkilatçısı "Leyla Khazary ArtGallery" Azərbaycanın incəsənət və qalereya işi aləmində bir çox yeniliklərin yaradıcısı və təşəbbüskarı kimi çıxış edir. Qalereya rəngkarlığı təbliğ etməkdən əlavə onlayn-şoular, konfranslar və hərraclar, rəsm kursları və mühazirələr təşkil edir.

Simpoziuma Azərbaycanın hüdudlarından kənarda da tanınan rəssamlar Anar Hüseynzadə, Anar Yolçuyev, Diana Əliyeva, Eldar Babazadə, Elnur Mahmudov, Əbülfəz Fərəcoğlu, Fərhad Yalquzaq, İnna Kostina, Mir Azər Abdullayev, Rafail Əliyev, Erkin Ələkbərli, Təranə Seid, Zöhrab Salamzadə dəvət edilib.

# Uçan avtomobillərin zamanı gəlir



Çinin elektrik avtomobilləri üzrə ixtisaslaşmış "Xpeng Inc" kompaniyasının istehsalı olan "uçan avtomobillər" Dubay səmasında sınaqdan keçirilib.

Dubay sakinləri ikinəfərlik salonu ən modern avtomobillərə uyğun dizayn edilmiş və helikopter pərləri ilə təchiz olunmuş bu nəqliyyat vasitələri ilə göydələnlərin ətrafında uçuşlar həyata keçiriblər.

90 dəqiqə davam edən uçuşlardan sonra jurnalistlərə müsahibə verən "Xpeng Inc" kompaniyasının baş meneceri Minquan Qui bildirib ki, "uçan avtomobillər" tıxac problemi olan meqapolislər üçün ən mühüm nəqliyyat vasitəsi olacaq. Onun sözlərinə görə, ilk sınaq uçuşlarının Dubayda keçirilməsinin səbəbi bu şəhərin müasir texnologiyaların tətbiqi sahəsində qabaqcıl rol oynamasıdır.

# "Komandir" filminin qala-gecəsi təşkil olunub

Türkiyə Silahlı Qüvvələrinin "Fərat qalxanı" adlı antiterror əməliyyatında baş verən real hadisələr əsasında çəkilən "Komandir" ("Komutan") filmi oktyabrın 12-də Bakıda, "Gənclik Mall Cinema Plus"da təqdim edilib. Qala-gecə Yunus Əmrə İnstitutunun Bakıdakı nümayəndəliyinin də dəstəyi ilə gerçəkləşib.




Suriyanın Əl-Bab bölgəsində baş verən terror hadisəsinə Türkiyə Xüsusi Təyinatlı Qüvvələrinə məxsus 4 nəfərlik xüsusi təyinatlı dəstənin müdaxiləsindən və orada şəhid olan dostlarının cənazələrini gətirmək üçün mübarizəsindən bəhs edən ekran əsəri reallığa uyğunluğu baxımından hər cür risk və təhlükələri gözə alaraq çəkilib.

Film Toros dağlarında, Türkiyə Silahlı Qüvvələrinin Diyarbəkir 7-ci Korpusu kazarmasının Jandarma Baş Komandanlığına aid ərazilərində çəkilən filmin rejissorları Selahattin Sancaklı və Mert Kılıçdır. Baş rolları Mert Kılıç, Aslıhan Günər, Can Kızıltuğ və Emre Bulut oynayırlar. Mert Kılıç və həyat yoldaşı Aslıhan Günər Bakıdakı qala-gecədə iştirak ediblər.

Mayor Tuna Alkan obrazına həyat verən Mert Kılıç ən təhlükəli kadrlarda belə dublyorlardan istifadə etməyib. Suriyalı türkmən qadın obrazını canlandıran Aslıhan Günər filmdə öz səsi ilə mərsiyə də oxuyub.

Filmdə Türkiyənin Daxili İşlər Nazirliyi yanında Jandarma Baş Komandanlığının "Black Hawk" ("Qara şahin") helikopterlərindən, Türkiyənin yerli və milli istehsalı olan "Atak" hücum helikopterlərindən və zirehli hərbi maşınlardan istifadə olunub.

Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 209 il əvvəl...

**16 oktyabr 1813-cü ildə** Leypsiq yaxınlığında Napoleon Bonapartın başçılıq etdiyi Fransa ordusu ilə müttəfiqlərin (Rusiya, Prussiya, Avstriya) birləşmiş qoşunları arasında döyüş başlanıb. Tarixə "Xalqlar döyüşü" adı ilə düşən döyüşdə Napoleonun ordusu darmadağın edilib. Fransa qoşunları 70 min hərbçi itirib (müttəfiqlərin itkisi 52 min nəfər idi). Bu məğlubiyyət Napoleonun faktiki iflası oldu.

### 169 il əvvəl...



**16 oktyabr 1853-cü ildə** Krım müharibəsi başlanıb. Qara dənizdən Yaxın Şərqədək geniş ərazidə strateji mübarizə uğrunda müharibədə Rusiya və ona qarşı Osmanlı, Britaniya və Fransa alyansı çıxış edirdi. 3 il sürən müharibədə Rusiya məğlub oldu. 1856-cı il martın 30-da imzalanan Paris sülhünə görə, Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququndan məhrum edildi. Bessarabiyanın cənubu Osmanlıya verildi. Rusiya yalnız 1878-ci ildə Osmanlı ilə müharibədən sonra itirdiyi mövqeləri qaytara bildi.

### 98 il əvvəl...

**14 oktyabr 1924-cü ildə** SSRİ Mərkəzi İcraiyyə Komitəsinin (ali qanunverici orqan) Mərkəzi Asiyada milli-ərazi bölgüsü haqqında qərarından sonra Stalin regionda sovet respublikalarının xəritəsini çəkməyə başlayıb. Moskvanın qərarı ilə RSFSR tərkibində Qara-Qırğız muxtar vilayəti yaradılıb. Muxtar vilayət 2 il sonra muxtar respublikaya, 1936-cı ildə isə SSRİ-nin subyekti kimi Qırğızıstan SSR-ə çevrildi. Eyni gündə Özbəkistan SSR tərkibində Tacikistan MSSR yaradılıb. 1929-cu ildə muxtar respublika Tacikistan SSR-ə çevrildi. Bir qədər sonra (27 oktyabr) Türkmənistan SSR yaradıldı. Mərkəzi Asiyada milli-ərazi bölgüsü 1936-cı ildə yekunlaşdı.

### 61 il əvvəl...



**17 oktyabr 1961-ci ildə** Moskvada Sov.İKP-nin 22-ci qurultayı işə başlayıb. İki həftə sürən qurultayda SSRİ-də sosializmin tam və qəti qələbəsinin təmin edildiyi və növbəti mərhələnin – kommunizm quruculuğu dövrünün başlandığı bəyan edilib. Sovet dövlətinin rəhbəri Nikita Xruşşov 1980-ci illərdə SSRİ-də kommunizmin bərqərar olacağını bildirib. Üç il sonra (14 oktyabr 1964-cü ildə) Xruşşovu istefaya göndərdirlər, 80-ci illərdə isə SSRİ-nin süqutu başlandı.

### 58 il əvvəl...

**16 oktyabr 1964-cü ildə** Çin ilk nüvə bombasını sınaqdan keçirib. Bu ölkədə nüvə silahı üzərində tədqiqatlar 1955-ci ildə SSRİ-nin köməyi ilə başlanmışdı. Öz bombasını əldə edən Çin dünyanın "nüvə klubu"nun beşinci (ABŞ, SSRİ, Britaniya və Fransadan sonra) üzvü, 1966-cı ildən isə BMT TŞ-nin də daimi üzvü oldu.

### 55 il əvvəl...

**14 oktyabr 1967-ci ildə** Cənubi Yəməndə müstəqil respublikanın yaranması ilə ölkənin ikiyə bölünməsi rəsmiləşib. Yəmən XVI əsrdən Osmanlı imperiyasının tərkibində olmuş, XIX əsrdə Britaniya protektoratlığına keçmişdi. XX əsrdə şimal və cənub arasında din-məzhəb ayrılığından da qaynaqlanan münaqişə başlanmış, 1962-ci ildə şimalda Yəmən Xalq Demokratik Respublikası yaranmışdı. 1990-cı ildə şimal və cənub vahid dövlətdə (Yəmən Respublikası) birləşsə də, qarşıdurma hələ də tam aradan qalxmayıb.

### 29 il əvvəl...

**14 oktyabr 1993-cü ildə** BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinə dair 874 saylı qətnamə qəbul edib. Bu, Ermənistan-Azərbaycan münaqişəsinə dair sayca üçüncü qətnamə (ondan öncə 822, 849 saylı qətnamələr qəbul olunmuşdu) idi. Sənəd ümumi xarakterli idi və tərəfləri münaqişənin dinc yolla həllinə çağırmaqla kifayətlənirdi.

### 19 il əvvəl...

**15 oktyabr 2003-cü ildə** Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. MSK-nin rəsmi məlumatına görə, səsvermədə seçicilərin 71 faizi iştirak etmişdi. Baş nazir İlham Əliyev 76,84 faiz səs qazanaraq Azərbaycanın yeni Prezidenti seçildi.

### 14 il əvvəl...

**15 oktyabr 2008-ci ildə** Azərbaycanda keçirilən növbəti prezident seçkilərində İlham Əliyev ikinci müddətə dövlət başçısı seçilib. Rəsmi nəticələrə əsasən, ölkə üzrə seçicilərin 75,6 faizi səsvermədə iştirak etmiş və seçicilərin 88,73 faizi İlham Əliyevə səs vermişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2958
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641